RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 192 (9071) ÇƏRŞƏNBƏ, 7 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Bakıda keçirilən sərgilər yeni müqavilələrin bağlanması üçün əla platformaya çevrilir

## Prezident İlham Əliyev IV "ADEX" və XIII "Securex Caspian" sərgiləri ilə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlət başçısı Bakı Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.

Müdafiə naziri Zakir Həsənov, müdafiə sənayesi naziri Mədət Quliyev və Türkiyənin Baş qərargah rəisi Yaşar Güler dövlət başçısına sərgi haqqında məlumat verdilər.

Bildirildi ki, builki sərgidə dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət iştirak edir. Müasir silah və texnikanın nümayiş etdirildiyi bu genişmiqyaslı tədbir pandemiyanın yaratdığı məcburi fasilədən sonra yenidən keçirilir. Sərginin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı zəfərdən sonra ilk dəfə təşkil olunur. Sərgidə Azərbaycan Ordusunun qələbəsində müstəsna rol oynamış ölkənin hərbi-sənaye kompleksinin gücü və qüdrəti, müasir silahlar nümayiş olunur.

Qeyd edildi ki, "ADEX" müdafiə sərgisinin iştirakçıları arasında Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri var. İlk dəfə İordaniyadan olan şirkətlər də sərgiyə qatılıb. Bu il 8 ölkə milli stendləri ilə iştirak edir. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.

Prezident İlham Əliyev Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Milli Təhlükəsizlik Qüvvələrinin ehtiyaclarını ödəmək üçün müdafiə təyinatlı məmulatların, döyüş sursatlarının, zirehli hərbi texnikanın və digər vasitələrin yaradılması, istehsalı, təkmilləşdirilməsi, təmiri, utilizasiyası, idxalı/ixracına və xarici bazarlarda satışına cavabdeh olan nazirliyin pavilyonlarında son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb.

→ 2-3

## Azərbaycan Respublikası öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verir

### IV Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına

Hörmətli sərgi iştirakçıları və qonaqlar!

Sizi "ADEX-2022" IV Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin açılışı münasibətilə salamlayır və bütün iştirakçılara uğurlar arzulayıram.

Artıq ənənəvi xarakter almış "ADEX" sərgisi hərbi-texniki əməkdaşlığın inkişafı, ən müasir silah, texnika və texnologiyaların nümayiş etdirilməsi üçün mühüm platformaya çevrilmişdir. Sərgi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün geniş imkanlar yaradır.

"ADEX-2022" Vətən müharibəsində qazanılmış parlaq qələbədən sonra Azərbaycanın təşkil etdiyi ilk beynəlxalq müdafiə sərgisidir. Tədbirdə real döyüş əməliyyatları zamanı uğurla sınaqdan çıxmış yerli hərbi təyinatlı məhsulların nümayiş etdirilməsi onun əhəmiyyətini daha da artırır.

XXI əsrin müharibəsini aparmış Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi bu gün inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində diqqətlə öyrənilir. Son dərəcə çətin relyef şəraitində ən müasir döyüş silahlarını tətbiq etməklə Azərbaycan Silahlı Qüvvələri düşmənin möhkəmləndirilmiş müdafiə xətlərini yarmış və sürətlə irəliləyərək cəmi 44 gün ərzində onu təslim olmağa məcbur etmişdir. Azərbaycanın tarixi qələbəsi göstərdi ki, hərbi sahədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün müasir ordu quruculuğu, ölkənin hərbi qüdrətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi son dərəcədə əhəmiyyətlidir.

Azərbaycan Respublikası öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verir. Ölkəmiz hərbi-texniki sahədə dünyanın qabaqcıl dövlətləri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, milli müdafiə sənayesi sahəsində də imkanlarını genişləndirir. Hazırda Azərbaycan aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 50-dən çox ölkəsinin aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir, ölkəmizin müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır.

Biz, qarşıdan gələn dövrdə də müasir silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsalına xüsusi diqqət yetirməklə Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik.

Əminəm ki, "ADEX-2022" sərgisi faydalı təcrübə mübadiləsinin aparılmasına, yeni əməkdaşlıq əlaqələrinin qurulmasına əlverişli imkan yaradacaq və Azərbaycanın müdafiə sənayesinin elmi-texnoloji potensialının artırılmasına öz müsbət töhfəsini verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2022-ci il*

## Regional liderlikdən qlobal nüfuz sahibliyinədək

### Azərbaycan milli maraq və mənafelərini qətiyyətlə təmin edən dövlətlər sırasındadır

Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın malik olduğu güclü status ölkəmizlə bağlı dünyada qəbul olunan həqiqətlərdən biridir.

30 il əvvəl siyasi və iqtisadi böhranlar içərisində olan respublikamız indi yerləşdiyi coğrafi bölgədə və bütövlükdə qlobal səviyyədə söz sahibi olan dövlət kimi çıxış edir, beynəlxalq təhlükəsizliklə bağlı problemlərin yoluna qoyulmasına mühüm töhfələr verir. Ən böyük həqiqətlərdən biri də odur ki, Azərbaycan özünün milli maraq və mənafelərini qətiyyətlə təmin edən azsaylı dövlətlər sırasındadır.

**İlham ƏLİYEV: "Bizim hər zaman öz siyasətimiz olub"**

Təbii ki, Azərbaycanın regional və qlobal miqyasda uğurlarını şərtləndirən əsas səbəb ölkə rəhbərliyinin yürütdüyü siyasətdir.

→ 5

## Azərbaycan Avrasiyada enerji təminatçısı rolunu daha da gücləndirir

### İlham Əliyevin reallaşdırdığı qlobal layihələr ölkəmizə iqtisadi və siyasi dividendlər qazandırır

6 il öncə - 2016-cı il sentyabrın 1-də Azərbaycan tarixində mühüm hadisələrdən biri yaşanır. Bakı Dərin Özüllər Zavodunda ilk dəfə olaraq tikintisinin 100 faizi ölkə daxilində həyata keçirilən "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimi keçirilir.

Mərasimdə iştirak edən Prezident İlham Əliyev deyir: "Bu gün artıq Azərbaycan böyük qaz dövlətlərinin sıralarına daxil olur. Hasilat, nəqliyyat artacaq, Azərbaycan gələcəkdə tranzit funksiyalarını da oynaya bilər".

Elə həmin il Nazirlər Kabinetinin son iclasında Prezident bir daha qeyd edir ki, artıq postneft dövründə yaşayırıq. Ancaq bir neçə ildən sonra Azərbaycan dünya bazarlarına çox böyük həcmdə təbii qazı da ixrac etməyə başlayacaq və yenə də ölkəmizə valyuta axını artacaq.

Dünyanı bürüyən qlobal pandemiya, iqtisadi böhran, müxtəlif ərazilərdəki münaqişələr fonunda Azərbaycan beynəlxalq miqyaslı layihələrini reallığa çevirir. Hazırda dayanıqlı inkişafını təmin edən Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynaması, İlham Əliyevin illər öncə uzaqgörənliklə söylədiyi fikirlərin reallaşdığını bir daha təsdiqləyir.

İtaliyaya işgüzar səfəri zamanı Azərbaycan Prezidentinin "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən təşkil edilmiş beynəlxalq forumdakı çıxışı və bu ölkənin "İl Sole 24 Ore" qəzetinə verdiyi müsahibədə səsləndirdiyi fikirlər bir daha Azərbaycanın hansı potensiala malik olduğunu dünyaya bəyan etdi.

→ 5

## Azərbaycan qazına tələbatın artması gündəmdə daha vacib yer alır

### Prezident İlham ƏLİYEV: "Qarşıda görüləsi çox iş dayanır"

Son dövrlər Azərbaycanın Avropaya nəql etdiyi qaza tələbatın artmasından, 2027-ci illədək ixracın 10 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılmasından tez-tez söhbət gedir.

Bu məsələ Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunda öz əksini tapmış, eləcə də Prezident İlham Əliyevin İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumdakı çıxışının və həmin ölkənin "İl Sole 24 Ore" qəzetinin müxbirinə verdiyi müsahibənin başlıca mövzularından olmuşdur.

Avropaya qazı Trans-Adriatik Qaz Boru Kəməri (TAP) çatdırır. Buna görə də ixracın artırılmasından söz düşəndə ilk növbədə bu kəmərin ötürücülüyünün artırılması zəruriliyi fikri irəli sürülür. Lakin dövlət başçısının dediyi kimi, burada söhbət təkcə TAP-dan getmir: "Avropaya ixracı iki dəfə artırmaq böyük işdir.

→ 5



## "Dəmir yumruq" Ermənistanı sülhə məcbur edir

**"Bizim regionda vəziyyət sülhə doğru inkişaf edir, mən buna ümid edirəm..."**

Prezident İlham Əliyevin İtaliyanın "İl Sole 24 Ore" qəzetinə verdiyi müsahibəsində bəyan etdiyi kimi, Azərbaycan 44 günlük müharibədə düşmən üzərində hərbi qələbə çaldıqdan dərhal sonra bölgədə sülhün bərqərar olması üçün diplomatik müstəvidə də ardıcıl və uğurlu addımlar atmağa başlayıb.

Ölkəmiz Cənubi Qafqazda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması üçün bu istiqamətdə mühüm işlər həyata keçirir.

→ 7

## Azərbaycan bərpaolunan enerji sahəsində də etibarlı tərəfdaş kimi tanınır

Prezident İlham Əliyevin İtaliyaya növbəti səfəri bu ölkə ilə yanaşı, Avropa İttifaqı arasında əməkdaşlığın yeni bir mərhələsinin təməlini qoydu. Azərbaycan Avropanın indiki çətin durumunda qitənin qazla təminatına mühüm töhfə verəcək.

O da məlumdur ki, İtaliya Avropadakı ölkələr arasında Azərbaycanla sıx siyasi və iqtisadi əlaqələrlə seçilən ölkədir. Bu ölkə "qoca qitə"dəki ən önəmli tərəfdaşımızdır. İtaliya həmçinin xarici ticarətdə əsas partnyorumuzdur. Cari ilin yanvar-iyun aylarında xarici ticarətdəki ixracımızın 48,6 faizi bu ölkənin payına düşüb.

Səfər zamanı dövlət başçısının bir sıra mühüm görüşləri oldu. Onlardan biri də İtaliyanın Çernobbio şəhərində Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyasının həmsədri Xalid bin Əbdüləziz Əl-Falin ilə keçirildi.

→ 7

# Bakıda keçirilən sərgilər yeni müqavilələrin



















*Əvvəli 1-ci səh.*

Döyüş kəşfiyyat texnikası, çoxməqsədli, kəşfiyyat və zərbə pilotsuz uçuş aparatları, müxtəlif çaplı atıcı silahlar, mühəndislik texnikaları və digər hərbi texnikalar sərginin maraq doğuran eksponatları sırasındadır.

Türkiyə Respublikası sərgidə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biridir. Müdafiə sənayesində ən müasir və qabaqcıl texnologiyalardan geniş istifadə edən qardaş Türkiyə sərgidə 42 şirkət ilə təmsil olunub. Bu şirkətlərdən biri olan "HAVELSAN" 1982-ci ildə Türkiyə Silahlı Qüvvələrinin Gücləndirilməsi Fondunun tərkibində yaradılıb. Şirkət təkcə müdafiə, təhlükəsizlik və İT sahələrində texnologiyaları inkişaf etdirməklə kifayətlənmir, həm də özünün yüksək texnologiyalı proqram həllərini hazırlayır və simulyatorlar istehsal edir. "HAVELSAN" həmçinin yeni nəsil texnologiyalar, xüsusilə də süni intellektlə əlaqəli məhsullar, layihələr və sistemlər hazırlayır. Prezident İlham Əliyev şirkətin məhsulları ilə tanış oldu.

Türkiyəni təmsil edən "Roketsan" şirkəti 1988-ci ildə qurulub. Şirkət müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr, alqoritm və proqram təminatını hazırlayır və istehsal edir, onları quru, hava və dəniz platformaları ilə birləşdirir. Eyni zamanda bu sistemlərə maddi-texniki dəstək verir, raket yanacağı istehsal edir, ballistik mühafizə layihələri hazırlayır və həyata keçirir, eləcə də öz müəssisələrində kosmik raketləri işləyib hazırlayır.

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının pavilyonları ilə də tanış oldu. Bildirildi ki, ölkəmizlə hərbi əməkdaşlıq edən Pakistanda istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir. Bildirildi ki, "Pakistan Ordnance Factories" (POF) şirkəti beynəlxalq standartlara uyğun geniş çeşiddə silah-sursat istehsal edən ən böyük dövlət müdafiə sənayesi kompleksidir. Pakistan Silahlı Qüvvələrinin və hüquq-mühafizə orqanlarının aparıcı təchizatçısı olmaqla yanaşı, POF dünyanın bir çox ölkəsinə məhsul ixrac edir. POF-un törəmə şirkətləri məhsullarına görə yüksək nüfuza malikdir. "Pakistan Ordnance Factories" şirkəti ISO-9001, ISO-14001, ISO-17025 və OHSAS 18001 kimi beynəlxalq keyfiyyət sertifikatlarını əldə edib.

Qlobal Sənaye və Müdafiə Həlləri (GIDS) şirkəti çoxşaxəli hərbi tətbiqlər üçün məhsullar təklif etməklə, ölkənin ən böyük müdafiə istehsalat bölmələrini, əsas tədqiqat və inkişaf fəaliyyətlərinin mərkəzini təmsil edən Pakistanın dövlətə məxsus ilk müdafiə konqlomeratıdır. GIDS şirkəti tədqiqat və inkişaf fəaliyyətlərinə böyük məbləğdə sərmayə yatırır, Pakistanı yüksək texnologiya sahələrində aparıcı investor edir.

Türkiyənin pilotsuz uçuş aparatı istehsalçısı olan "Lentatek" pilotsuz sistemlər sahəsində uğurlar əldə etmiş şirkətlərdən biridir. Dövlətimizin başçısına şirkətin istehsalı olan pilotsuz uçuş aparatları, hidrogen və yanacaq texnologiyaları, kosmik texnologiyalar və digər istehsalat sahələri barədə məlumat verildi.

"Dearsan" gəmiqayırma və gəmi təmiri zavodu inşa edildiyi 1980-ci ildən Türkiyənin ən mühüm müəssisələri arasındadır. "Dearsan" dəstək gəmisi, korvet (gözətçi) tipli gəmilər, patrul gəmiləri, çevik hərəkət qayıqları, desant gəmiləri, hidroqrafiya və okeanoqrafiya elmi tədqiqat gəmiləri, minaaxtaran gəmilər, özü idarəolunan qayıqlar, mülki nəqliyyat gəmiləri və həmçinin gəmiqayırma zavodunun tikintisi və ya modernləşdirilməsi, dəniz su sərhədlərinin mühafizə sistemləri, sursat istehsalı zavodu kimi müxtəlif mürəkkəb hərbi platformaların tikintisi üzrə ixtisaslaşıb.

Dövlətimizin başçısı İspaniyanın sərgidəki pavilyonu ilə tanış oldu. Pavilyonda bu ölkəni "Indra" şirkəti təmsil edir. Şirkət dünyanın aparıcı mühəndislik şirkətlərindən biridir və rəqəmsal sənayedə liderdir. Radar, elektron müdafiə, idarəetmə və kommunikasiya texnologiyaları üzrə ixtisaslaşmış şirkət öz sistemlərində süni intellekt və virtual reallıqdan istifadə edir. "Indra" şirkəti Avropanın ən böyük və ən qabaqcıl müdafiə proqramı olan FCAS-ın İspaniyadakı milli sənaye koordinatorudur.

Maşınqayırma və kimya sənayesi müəssisəsi yüksək texnologiya və təcrübəyə üstünlük verən Türkiyənin müdafiə sənayesində lider qurumlardan biridir. Müəssisənin məhsulları yüksək keyfiyyəti ilə seçilir. Bu müəssisə müştərilərə hərbi sursatlar - raketlər, silahlar, partlayıcı maddələr, barıt, pirotexnika və qaz maskaları kimi geniş çeşiddə məhsullar təklif edir.

"Turkish Aerospace" sabit və hərəkətli hava platformalarından pilotsuz uçuş aparatı və peyklərə qədər inteqrasiya olunmuş aerokosmik sistemlərin dizaynı, işlənib hazırlanması, müasirləşdirilməsi, istehsalı, inteqrasiyası və istifadə dövründə dəstək sahəsində Türkiyənin texnologiya mərkəzidir. Aerokosmik və müdafiə sahəsində ən yaxşı yüz qlobal şirkət arasında yer alan "Turkish Aerospace" tərəfindən dizayn və istehsal edilən bütün məhsullar üçün inteqrasiya olunmuş logistika xidməti də göstərilir.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "ASSAN"dır. Şirkət silah və döyüş sursatlarının, o cümlədən onların tərkib hissələrinin, yarımbloklarının, ləvazimatlarının və ehtiyat hissələrinin qabaqcıl texnologiya ilə müasir müəssisələrdə beynəlxalq standartlara uyğun dizaynı, layihələndirilməsi və istehsalı imkanlarına malikdir.

Prezident İlham Əliyev İran İslam Respublikasının pavilyonuna da baxdı. Qeyd olundu ki, İran Aviasiya Sənaye Təşkilatı (IAIO) bu ölkənin mülki və hərbi aviasiya sənayesini planlaşdırmaq, nəzarət və idarə etmək məqsədilə 1966-cı ildə yaradılmış dövlət korporasiyasıdır. Şirkət təyyarə və aerokosmik məhsullar istehsal edir.

Pakistan Aeronavtika Kompleksinin stendində təyyarə və aviasiya sistemləri üçün texniki xidmət vasitələri, simulyatorlar və təlim sistemləri nümayiş olunur.

Məlumat verildi ki, Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi müdafiə təyinatlı məmulatların - pilotsuz uçuş aparatlarının, kəşfiyyat-patrul maşınlarının, döyüş modullarının, müxtəlif növ simulyasiya

# bağlanması üçün əla platformaya çevrilir






sistemlərinin işlənilməsi, ölkəmizin güc strukturlarının tələblərinə uyğun modernləşdirilməsi, seriyalı istehsalın təşkili və ixracı istiqamətində fəaliyyət göstərir.

Azərbaycan Prezidentinə məlumat verildi ki, Türkiyənin "Aselsan" şirkəti artıq dördüncü dəfədir "ADEX" sərgisində iştirak edir. Şirkətin təqdim etdiyi məhsullar maraqla qarşılanır. Fəaliyyətinə radiorabitə cihazı ilə başlayan şirkət bu gün müdafiə və təhlükəsizlik sahəsində 500-dən çox adda məhsul istehsal edir.

İsrailin milli pavilyonlarında nümayiş edilən eksponatlarla tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müdafiə, aerokosmik və kommersiya bazarlarında lider olan İsrail Aerokosmik Sənayesi milli müdafiə və təhlükəsizlik problemlərini həll etmək üçün ən müasir texnologiyadan və onilliklər ərzində sübut edilmiş döyüş təcrübəsindən istifadə edir.

"RAFAEL Qabaqcıl Müdafiə Sistemləri" MMC İsraildə 70 ildən artıqdır ki, hava, quru, dəniz və kosmos üçün kibertəhlükəsizlik sistemlərinin yaradılması ilə məşğuldur. Şirkət təyyarə və aviasiya vasitələri, raket və kosmik qurğular üçün sistem və komplekslər, zirehli döyüş maşınları, radioelektron, peyk, GPS və GSM sistemləri üzrə fəaliyyət göstərir.

Sərgidə İsrailin "Plasan" şirkəti də öz məhsullarını təqdim edir. Şirkət təkərli və tırtıllı döyüş maşınları üçün geniş çeşiddə robot texnologiyaları üzrə ixtisaslaşıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) də sərgidə fəal iştirak edir. Fəaliyyət illəri ərzində ANAMA ölkə daxilində və xaricində bir sıra layihələr həyata keçirib. Agentlik hazırda işğaldan azad edilən Qarabağda mina və partlamamış hərbi sursatlardan təmizləmə əməliyyatları həyata keçirir.

Dövlət başçısı həmçinin Qazaxıstanın Sənaye İnfrastrukturunun İnkişafı Nazirliyinin pavilyonu ilə də tanış oldu.



Rusiya Federasiyasını "ADEX-2022" sərgisində 13 şirkət təmsil edir. "Rosoboronexport" Rusiyanın müdafiə sahəsi ilə bağlı məhsulların, xidmətlərin və texnologiyaların tam çeşidinin ixracı üzrə yeganə dövlət agentliyidir. Qlobal silah bazarında liderlərdən biri olan "Rosoboronexport" Rusiyanın bu sahədə məhsul ixracının 85 faizdən çoxunu təşkil edir. Agentlik Rusiyanın müdafiə sənayesi üzrə 700-dən çox müəssisə və təşkilatı ilə əməkdaşlıq edir.

Bolqarıstan Respublikasının pavilyonu ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, "Transmobil" şirkəti 1990-cı ildə Sofiya şəhərində yaradılıb. Şirkət yüksəksürətli kinetik sursatların, kumulyativ-termobarik qumbaraatanların, yüksək effektivliyə malik artilleriya sursatlarının və minaatanların istehsalı üzrə fəaliyyət göstərir.

Sərgidə Ukraynanı təmsil edən "Motor Sich" Açıq Səhmdar Cəmiyyəti hərbi texnika üzrə layihələndirmə, təkmilləşdirmə, istehsal, əsaslı təmir və texniki dəstək sahəsində ixtisaslaşmış çoxşaxəli müəssisədir. ASC-nin istehsal etdiyi məhsullar dünyanın 100-dən çox ölkəsində uğurla istifadə olunur.

Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının sərgidəki pavilyonunda da oldu. Məlumat verildi ki, bu ölkəni təmsil edən "CETC International Co. Ltd" "Çin Elektron Texnologiyalar Qrupu Şirkəti"nin (CETC) beynəlxalq biznes və əməkdaşlıq üzrə əsas platformasıdır. CETC 2021-ci ildə "Fortune Global 500" sıralamasında 354-cü yerdə qərarlaşıb.

Dövlət başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin "AZAD Sistemlər" müəssisəsinin istehsal etdiyi hərbi texnika ilə tanış oldu.

Sonra Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı.

Qeyd edək ki, "ADEX" və "Securex Caspian" sərgiləri üçün geniş işgüzar proqram hazırlanıb. Sərgilərin keçiriləcəyi üç gün ərzində Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi, pilotsuz sistemlərinin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və digər aktual mövzular üzrə sessiyalar keçiriləcək.

Beləliklə, IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün əla platformaya çevriləcək.

# Bakıda Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və "Securex Caspian" sərgilərinin açılış mərasimi keçirilib

**Sentyabrın 6-da Bakı Ekspo Mərkəzində IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgilərinin açılış mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, "ADEX" sərgisi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı və Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Tədbirin təşkilati işlərinin icrası "Caspian Event Organisers" şirkətinə həvalə edilib.

Sərginin təntənəli açılış mərasimində Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənov, Azərbaycan Silahlı Qüvvələrinin komandanları, Müdafiə Nazirliyinin baş idarə, idarə və xidmət rəisləri, Müdafiə Sənayesi Nazirliyinin struktur rəhbərləri və xarici nümayəndə heyətləri iştirak ediblər.

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev sərgi iştirakçılarını salamlayaraq işinə uğurlar arzulayıb.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərgi iştirakçılarına təbrik məktubunu oxuyub.

Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Qeyd edək ki, "ADEX" müasir silah və texnikanın sərgisi pandemiyanın yaratdığı məcburi fasilədən sonra baş tutur. Sərginin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı zəfərdən sonra ilk dəfə keçirilir. Sərgidə Azərbaycan Ordusunun qələbəsində müstəsna rol oynamış ölkənin hərbi-sənaye kompleksinin gücü və qüdrəti, müasir silahlar nümayiş etdirilir.

Burada ümumilikdə 1000-dən artıq silah-sursat istehsal edən Müdafiə Sənayesi Nazirliyinin birlik və müəssisələrinin 179 adda məhsulu sərgilənir.

İki yüzdən çox şirkəti bir araya gətirən "ADEX" Bakı Ekspo Mərkəzinin üç pavilyonunu və açıq sahəsini əhatə edib. İştirakçılar arasında Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri var. İlk dəfə İordaniyadan olan şirkətlər də qatılıb. Bu il 10-a yaxın ölkə milli stendləri ilə iştirak edir. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini artırıblar. Ümumilikdə sərgidə



2 mindən çox silah-sursat və hərbi texnika nümayiş olunur.

Sərginin baş sponsoru "Jadara Equipment & Defense Systems", qızıl sponsoru "Turkish Aerospace", bürünc sponsoru isə "ASFAT" şirkətidir.

"ADEX-2022" sərgisində təyyarə və aviasiya sistemləri, dəniz gəmiləri və hərbi dəniz sistemləri, zirehli döyüş nəqliyyat vasitələri, radioelektron sistemlər, C4ISR, optik-elektron avadanlıq və sistemlər, pilotsuz sistemlər, hərbi geyim və ləvazimatlar, silah və sursat, simulyatorlar və təlim sistemləri, radiasiya, kimyəvi və bioloji müdafiə (RKB), hərbi təşkilatlar, ixracın təşviqi ilə məşğul olan müəssisələr və sair sektorlar təmsil olunur.

Müasir silah və texnika sərgisi olan "ADEX" Azərbaycan Respublikasının və dünya şirkətlərinin hərbi-sənaye kompleksinin gücünü və qüdrətini nümayiş etdirir. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin stendləri Bakı Ekspo Mərkəzinin birinci, üçüncü zallarında və açıq sahəsində yerləşdirilib. Burada yerli istehsal olan ən son silah və hərbi texnika nümayiş etdirilir. Peşəkarlar ölkənin müdafiə kompleksindəki yeniliklərlə, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin mövcud və artmaqda olan imkanları ilə tanış ola biləcəklər.

Sərginin açıq sahəsi xüsusi diqqətəlayiqdir, burada hərbi maşınlar, pilotsuz uçuş aparatları, hava hücumuna qarşı sistemlər təqdim olunur.

Ənənəvi olaraq sərgiyə xarici ölkələr "ADEX-2022"yə öz nümayəndə heyətlərini göndəriblər. Beynəlxalq nümayəndə heyətləri və şirkətlər tərəfindən "ADEX" sərgisinə göstərilən böyük maraq Azərbaycanın mühüm strateji tərəfdaş kimi yüksək rolunu və əhəmiyyətini bir daha təsdiqləyir.

Sərgidə müasir silah növlərinin genişmiqyaslı nümayişi Silahlı Qüvvələrin texniki cəhətdən yenidən təchiz olunmasına töhfə verəcək, konstruktiv ünsiyyətə, təcrübə mübadiləsinə, texniki sahədə yerli və xarici mütəxəssislər arasında səmərəli əlaqələrin qurulmasına şərait yaradacaq.

"ADEX"lə paralel olaraq, hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modelləri nümayiş etdirilən XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgisi də keçirilir. Qeyd olunan sərgi Müdafiə Sənayesi Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin dəstəyi ilə təşkil olunur. Bu sərgi əməkdaşlığın inkişafı, təcrübə mübadiləsi üçün əlverişli şəraitin yaradılmasına töhfə verəcək və dövlətin, cəmiyyətin, vətəndaşların daxili təhlükəsizliyinin təmin edilməsi üçün tətbiq olunan problemlərin həllinə kömək göstərəcək. "Securex Caspian" sərgisində siqnalizasiya və əhalini xəbərdaretmə vasitələri, kriminalistik optik alətlər, qəza-xilasetmə vasitə və avadanlıqları, yanğın təhlükəsizliyi avadanlığı və sair bölmələr təqdim olunur.

"ADEX" və "Securex Caspian" sərgiləri üçün geniş işgüzar proqram hazırlanıb. Sərgilərin keçiriləcəyi üç gün ərzində Azərbaycanın işğal olunmuş ərazilərinin minalardan təmizlənməsi mövzusunda, pilotsuz sistemlərinin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və başqa aktual mövzular üzrə sessiyalar keçiriləcək. Həmçinin sərgi çərçivəsində startapların təqdimatları nəzərdə tutulub. Bundan başqa, sərgi iştirakçıları ilə beynəlxalq heyətlərin, həmçinin Azərbaycanın müvafiq qurumlarının nümayəndələri arasında ikitərəfli görüşlər keçiriləcək. Beləliklə, "ADEX" sərgisi beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün əla platformaya çevriləcək. Sərginin proqramı ilə **www.adex.az/** rəsmi internet saytında tanış olmaq olar.

## "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1756 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1756 nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1-ci bənddə "Zəngilan rayonuna" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına" sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"nin 1.1-ci bəndində "Zəngilan rayonuna" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2022-ci il*

## İ.H.Cəfərovun Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İbrahim Həsən oğlu Cəfərov Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2022-ci il*

## Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistana işgüzar səfərə gedir



Milli Məclisin Sədri Sahibə Qafarova Qadın Parlament Sədrlərinin 14-cü Sammitində iştirak etmək üçün sentyabrın 7-də Özbəkistanın Daşkənd şəhərinə işgüzar səfər edəcək.

Milli Məclis Sədrinin Qadın Parlament Sədrlərinin 14-cü Sammitinin birinci sessiyasında "Pandemiyadan sonrakı qlobal bərpaya dair risklərin aradan qaldırılması" mövzusunda çıxışı gözlənilir. Sammitdən sonra qadın parlament sədrlərinin iştirakı ilə keçiriləcək "dəyirmi masa"nın yekununda Daşkənd Bəyannaməsi qəbul olunacaq.

Səfər çərçivəsində Azərbaycan parlamenti sədrinin sammitdə iştirak edəcək bir sıra ölkələrin parlament rəhbərləri ilə görüşləri də nəzərdə tutulur.

İşgüzar səfər sentyabrın 10-da başa çatacaq.

***"Azərbaycan"***

## Daha 10 partiya "Siyasi partiyalar haqqında" yeni qanunla bağlı təkliflərini Milli Məclisə təqdim edib

Xəbər verildiyi kimi, Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin Sədrinə müraciət ediblər.

Müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına və dövrün tələblərinə cavab verən yeni qanunun hazırlanmasının vacibliyi öz əksini tapıb. Hazırda Milli Məclisin Sədri Sahibə Qafarovanın müvafiq tapşırığına əsasən, böyük ictimai əhəmiyyət kəsb edən bu yeni qanun layihəsinin hazırlanması üzərində iş davam edir.

Azərbaycanda dövlət qeydiyyatına alınmış siyasi partiyalar yeni qanun layihəsinə dair təkliflərini Milli Məclisə təqdim etməkdədir. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu günlərdə daha 10 siyasi partiya - Yeni Azərbaycan Partiyası, Azərbaycan Xalq Partiyası, Vətəndaş və İnkişaf Partiyası, Ağ Partiya, Milli Dirçəliş Hərəkatı Partiyası, Müasir Müsavat Partiyası, Yeni Zaman Partiyası, Birlik Partiyası, Azərbaycan Milli Demokrat Partiyası və Milli Konqres Partiyası yeni qanun layihəsi ilə bağlı təkliflərini Azərbaycan parlamentinə göndərib. Beləliklə, bu günə qədər Milli Məclisə təkliflərini ünvanlayan siyasi partiyaların sayı 39-a çatıb.

Qeyd edək ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin geniş müzakirəsi üçün Milli Məclisdə ictimai dinləmənin keçirilməsi nəzərdə tutulur.

***"Azərbaycan"***

## Baş nazirin müavini Əli Əhmədov Yaponiyanın "İtoçu" korporasiyası sədrinin müavini ilə görüşüb



Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov sentyabrın 6-da Yaponiyanın "İtoçu" korporasiyasının sədrinin müavini, Azərbaycan ilə Yaponiya arasında İqtisadi Əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Yoşihisa Suzuki ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin tarixi əhəmiyyəti qeyd edilib, müxtəlif sahələrdə əlaqələrimizin inkişafından məmnunluq ifadə olunub.

Söhbət zamanı Dövlət Komissiyasının Bakıda keçirilən 11-ci iclasının əhəmiyyəti vurğulanıb, həmçinin Azərbaycan-Yaponiya qarşılıqlı faydalı əməkdaşlığının siyasi, iqtisadi-ticari, nəqliyyat-tranzit, enerji, rəqəmsal texnologiyalar və digər sahələrdə daha da inkişaf etdirilməsi perspektivləri müzakirə olunub.

## "ADEX-2022" IV Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri bir sıra görüşlər keçirib

Sentyabrın 6-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında regional təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlıq, qarşılıqlı səfərlərin təşkili, eləcə də maraq doğuran digər məsələlər müzakirə olunub.

Tərəflər birgə hərbi təlimlərdə texnoloji innovasiyalardan istifadə edilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.

❖ ❖ ❖

Sentyabrın 6-da müdafiə naziri general-polkovnik Zakir Həsənov Qazaxıstan Respublikasının müdafiə nazirinin müavini general-leytenant Ruslan Şpekbayev ilə görüşüb.

Bakı Ekspo Mərkəzində keçirilən görüşdə Azərbaycan ilə Qazaxıstan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin, eləcə də ekspert qrupları səviyyəsində qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi bildirilib və maraq doğuran digər məsələlər müzakirə olunub.

❖ ❖ ❖

Sentyabrın 6-da müdafiə naziri general-polkovnik Zakir Həsənov Bosniya və Herseqovina Respublikasının müdafiə naziri cənab Sifet Podçiç ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə qarşılıqlı səfərlərin təşkili və digər məsələlər müzakirə edilib.

❖ ❖ ❖

Müdafiə naziri general-polkovnik Zakir Həsənov sərgidə iştirak etmək üçün ölkəmizdə səfərdə olan İsrailin "Rafael" şirkətinin rəhbəri cənab Yoav Har-Even ilə görüşüb.

Görüşdə Azərbaycan ilə İsrail arasında hərbi əməkdaşlığın güclənməsinin vacibliyi və dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələr barədə ətraflı fikir mübadiləsi aparılıb. Eyni zamanda Azərbaycan-İsrail hərbi əlaqələrinin möhkəmlənməsində belə görüşlərin və qarşılıqlı səfərlərin zəruriliyi xüsusi vurğulanıb.

❖ ❖ ❖

Sentyabrın 6-da müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Ruanda Respublikasının müdafiə naziri general-mayor Murasira Albert ilə görüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Müdafiə Sənayesi Komitəsinin sədri Dmitri Pantus ilə görüşüb.

Görüşdə tərəflər Azərbaycan ilə Belarus arasında hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri, müasir hərbi texnologiyaların tətbiqi imkanları, təcrübə mübadilələrinin keçirilməsi və qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.

***AZƏRTAC***

# Azərbaycan jurnalistlərinin VIII qurultayı keçiriləcək

Sentyabrın 6-da Azərbaycan Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin iclası keçirilib.

Mətbuat Şurasından bildiriblər ki, iclası açan şuranın sədri Əflatun Amaşov qurumun Nizamnaməsinə əsasən hər dörd ildən bir Azərbaycan jurnalistlərinin qurultayının keçirilməli, İdarə Heyəti yenidən seçilməli olduğunu qeyd edib. Deyib ki, bundan başqa, Mətbuat Şurasının Nəzarət-Təftiş Komissiyasının tərkibi də yenilənməlidir. Prosedur qaydalara uyğun olaraq, ali məclisin keçirilməsi üçün qurultaya hazırlıq üzrə Təşkilat Komitəsi yaradılmalıdır.

"İndiyədək Azərbaycan jurnalistlərinin yeddi qurultayı keçirilib. Axırıncısı 2018-ci ildə baş tutub. Artıq vaxtdır. Bu, sayca səkkizinci ali məclisimiz olacaq. Əvvəlki illərin təcrübəsini nəzərə alaraq deyə bilərəm ki, qurultaya hazırlıq üçün formalaşdırılacaq Təşkilat Komitəsinin üzvləri bir qayda olaraq İdarə Heyətinin üzvlərindən təşkil edilir. Başqa təklif yoxdursa, yenə həmin qaydada olsun. Fikrimcə, birlikdə prosesə effektiv hazırlığı reallaşdıra biləcəyik", - deyən Ə.Amaşov vurğulayıb ki, Azərbaycan jurnalistlərinin VIII qurultayının təşkili məqsədilə Mətbuat Şurasına üzv təşkilatlarla müvafiq iş aparılmalıdır.

Üzv təşkilatlar qurultayda iştirak edəcək nümayəndəsinin və nümayəndələrinin adlarını Təşkilat Komitəsinə təqdim etməlidirlər. Bundan başqa, onlar Mətbuat Şurasının İdarə Heyətində görmək istədikləri şəxslərin adlarını da bildirməlidirlər. Hər iki Nizamnamə prosedurunun tətbiqi üçün artıq anketlər hazırlanıb və onlar Mətbuat Şurasının presscouncil.az saytında "Azərbaycan jurnalistlərinin VIII qurultayı" adlı bannerdə yerləşdirilib. Şuranın üzvləri ora daxil olaraq hər iki anketi endirə bilərlər. Anketlər doldurulub təşkilatın rəhbərinin imzası və möhürlə təsdiqləndikdən sonra skan edilib şuranın info@presscouncil.az elektron ünvanına göndərilməlidir. Anketlər qeyd edilən prosedur yerinə yetirilməklə Mətbuat Şurasına şəxsən də çatdırıla bilər.

Ə.Amaşov qurultaya qədər Təşkilat Komitəsinin fəaliyyəti, eləcə də ali məclislə əlaqədar məsələlərə dair cəmiyyətə əlavə məlumatların veriləcəyini də diqqətə çatdırıb. O, çıxışında həmçinin qurultayın sentyabrın 24-də təşkil olunmasını təklif edib.

Şuranın İdarə Heyətinin üzvləri çıxışlarında Azərbaycan jurnalistlərinin indiyədək keçirilmiş qurultaylarının ölkənin ictimai həyatında mühüm əlamətdar hadisələr kimi yadda qaldığını vurğulayıblar. Onlar bu ənənənin davam etdirilməsi üçün səkkizinci ali məclisə hazırlıq işlərinin də yüksək səviyyədə görülməsinin vacibliyini önə çəkiblər.

İclasda həmçinin qurultayın keçirilmə yeri, iştirak qaydası ilə bağlı bir sıra məsələlər müzakirə olunub, yekdil fikrə gəlinib. Qərara alınıb ki, Azərbaycan jurnalistlərinin VIII qurultayının keçirilməsi üzrə Təşkilat Komitəsi yaxın günlərdə bunlarla əlaqədar ictimaiyyətə ətraflı məlumat versin.

***AZƏRTAC***

# Böyük qayıdış: "Daha 12 ailə Zəngilanın Ağalı kəndinə yola düşəcək"

Bu gün Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsinə başlanılacaq. Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə Böyük qayıdışa uyğun olaraq daha 25 ailə (125 nəfər) köçürüləcək. On iki ailədən ibarət birinci köç karvanı Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən yola düşəcək. Digər 13 ailə isə ikinci köç karvanı ilə sentyabrın 9-da məcburi köçkünlük həyatına son verəcək.








AZƏRTAC-ın çəkiliş qrupu illərdir doğma evlərinə geri dönmək ümidi ilə yaşayan bir neçə zəngilanlı ailənin evində olub, hazırda köç üçün son hazırlıq işləri görən şəxslərlə söhbət edib.

Ailəsi ilə birlikdə köç hazırlıqları edən Şıxnəsib Mahmudov yorğun, eyni zamanda sevincli şəkildə öz təəssüratlarını bölüşərək dedi: "Allah dövlətimizin başçısına, ordumuza kömək olsun, şəhidlərimizə rəhmət eləsin. Onların sayəsində biz 30 illik həsrətdən sonra doğma yurdumuza - Ağalıya qayıdırıq. Böyüyüb boya-başa çatdığımız Zəngilana getdiyimiz üçün özümüzü çox xoşbəxt hiss edirik. Uzun illər köçkünlük həyatı yaşadıq, ömrümüzün bundan sonrakı illərini isə fərəhlə öz el-obamızda keçirmək istəyirik".

Evlərində son dəfə yır-yığış işləri görən Laləzar Zeynalova isə bildirdi: "1993-cü ildən məcburi köçkünlük həyatı yaşayıram. O zaman mənim 25, qızımın isə 6 yaşı var idi. Allaha şükürlər olsun ki, sabah evimizə, doğma obamıza qayıdırıq, köçümüz uğurlu olsun. Mənim əmim oğlu da 1993-cü ildə şəhid olub. Onunla bərabər bütün şəhidlərimizə rəhmət diləyirəm. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində biz doğma torpaqlarımıza qayıdırıq".

Yüklərin yığılmasına kömək edən Mübariz Fərhadov da sevinc hisslərini AZƏRTAC-ın müxbiri ilə bölüşənlərdən biri oldu. O, təəssüratlarını belə ifadə etdi: "Mən 20 yaşıma qədər Ağalı kəndində yaşamışam. Sonra ailəmizlə birlikdə məcburi köçkünlük həyatı yaşadıq. İran sərhədində müxtəlif problemlərlə qarşılaşdıq. Buna baxmayaraq, Ulu Öndər Heydər Əliyevin sayəsində sərhəddə yaşadığımız problem həll olundu. Bu illərdə çox çətinliklərlə qarşılaşdıq, amma dövlət başçısının diqqət və qayğısını hər zaman hiss etdik".

Sabah Ağalıya köçən azyaşlı Aysun Mahmudova bura üçün darıxmayacağını, Ağalıya getdikləri üçün çox sevindiklərini bildirib.

Ağalıya köçən sakinlər yorğun olsalar da, əşyalarını yük maşınlarına yığmaqla məşğuldurlar.

Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan ailələr yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşacaqlar. Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin sakinləri var.

Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

Ümumilikdə "ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə birinci mərhələdə köçürülən 41 ailə (201 nəfər) hər cür şəraitlə təmin olunub.

Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar. Burada yaşayacaq əhalinin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən həll edilir.

Qeyd edək ki, Ağalı kəndinə əhalinin köçürülməsi Böyük qayıdışın ilk qədəmləridir. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaradıb. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olunublar. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətlənib və hazırda ardıcıllıqla həyata keçirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva da məcburi köçkünlərlə bağlı məsələlərə daim xüsusi həssaslıqla yanaşır, onların problemlərinin həllinə kömək göstərir.



# Azərbaycan Avrasiyada enerji təminatçısı rolunu daha da gücləndirir

## İlham Əliyevin reallaşdırdığı qlobal layihələr ölkəmizə iqtisadi və siyasi dividendlər qazandırır

*Əvvəli 1-ci səh.*

### Avrasiyanın enerji xəritəsini dəyişdirən ölkə

Bu gün həqiqətən də Azərbaycanın adı qaz ixrac edən dövlətlərin sırasında çəkilir və tərəfdaş ölkələrin sayı getdikcə artır. Bunun əsas səbəblərindən biri də Azərbaycanın özünün etibarlı tərəfdaş funksiyasını uğurla yerinə yetirməsidir.

Əlbəttə ki, bu uğurlar o qədər də asan əldə edilməyib. Azərbaycan çətin dönəmlərdən keçsə də, müəyyən təzyiqlərə məruz qalsa da, sonunda istəyinə nail ola bilib. Bu, Ulu Öndər Heydər Əliyevin əzmkarlığı və İlham Əliyevin qətiyyəti sayəsində reallaşıb. İtaliyada beynəlxalq forumdakı çıxışında Prezident İlham Əliyev bu məsələlərə bir daha aydınlıq gətirərək Azərbaycanın enerji strategiyasının mərhələlərə bölündüyünü vurğulayıb. Belə ki, 1994-cü ildə dövlət müstəqilliyinin bərpasından üç il sonra Ümummilli Lider Heydər Əliyev dünyanın aparıcı enerji şirkətlərini Xəzər dənizində çalışmağa dəvət edir və bununla da Azərbaycan bir ilkə imza atır. Çox keçmir ki, ölkəmiz Avropa bazarına, əsasən də İtaliyaya neft ixrac edən ölkəyə çevrilir.

Azərbaycanın açıq dənizə çıxışı olmadığı üçün dünya bazarına olan yolun daha da genişləndirilməsi yalnız ixrac boru kəmərləri vasitəsilə reallaşa bilərdi. Beləliklə, Azərbaycan iki strateji neft boru kəmərinin inşası ilə Avrasiyanın enerji xəritəsinin dəyişdirilməsi prosesində təşəbbüsü üzərinə götürdü. Biri Türkiyənin Aralıq dənizi sahilindəki limana qədər, digəri isə Gürcüstanın Qara dəniz sahilindəki limana qədər uzanır. Bununla da Azərbaycan Qara dəniz bazarına və digər dünya bazarlarına təchizatı şaxələndirməyə nail olur.

### 2,6 trilyon kubmetrə bərabər qaz ehtiyatı var

Prezidentin söylədiyi kimi, Azərbaycanın enerji strategiyasının ikinci mərhələsi nəhəng qaz yataqlarının istismarı ilə bağlıdır. Ölkəmizin təsdiq edilmiş ehtiyatları ilə bağlı məlumata əsasən, hazırda Azərbaycanın 2,6 trilyon kubmetrə bərabər qaz ehtiyatı var.

Azərbaycan son 10 il ərzində qonşu ölkələr bazarının etibarlı təchizatçısıdır. Lakin dövlətin mövcud potensialı və qaz infrastrukturuna sərmayə yatırmaq planları nəzərə alınaraq ölkənin böyük qaz təchizatı boru kəmərinin - "Cənub qaz dəhlizi"nin inşasına başlanılır. Bu, üç boru kəmərindən ibarət inteqrasiya edilmiş boru kəmərləri sistemidir - Cənubi Qafqaz, Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəməri.

2020-ci il dekabrın 31-də TAP istifadəyə verilən, Azərbaycandan İtaliya sahillərinə qədər uzanan 3500 kilometr uzunluğunda mürəkkəb texniki infrastrukturun bir hissəsi hündür dağlardan, bir hissəsi isə dənizin dibindən keçir. Həmin dövrdən etibarən bir il yarımdır ki, Azərbaycan Türkiyə və Gürcüstandan əlavə Avropanın üç ölkəsinə təbii qaz ixrac edən ölkəyə çevrilib. Bir il yarım ərzində Avropaya 13,5 milyard kubmetr qaz nəql edilib ki, onun 11,7 milyard kubmetri İtaliyanın payına düşür.

İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycan bu il həcmi artırmağı və İtaliya bazarına 10 milyard kubmetr qaz nəql etməyi planlaşdırır. Ümumi ixrac isə 22 milyard kubmetrdən artıq olacaq və burada artım üçün çox böyük potensial var.

Xatırladaq ki, bu ilin iyulunda Azərbaycana səfər edən Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə İlham Əliyevin imzaladığı Anlaşma Memorondumu da Azərbaycanın iqtisadi gücünün göstəricisi hesab olunmalıdır. Bu sənədə əsasən Azərbaycan Avropa ölkələrinə ixrac etdiyi qazın həcmini 2027-ci ilədək 10 milyarddan 20 milyard kubmetrə çatdıracaq.

Göründüyü kimi, Azərbaycan Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırır. Sözü imzası qədər keçərli olan İlham Əliyev avropalıları əmin etdi ki, bu, mütləq reallaşacaq. Amma bunun üçün isə vacib addımlar atılmalıdır - siyasi qərarlar, texniki tədbirlər və əlbəttə ki, sərmayə yatırımı lazımdır. Çünki "Cənub qaz dəhlizi"nin müxtəlif seqmentlərinin imkanları fərqlidir.

İlham Əliyev bu məsələ ilə bağlı investorlara da çağırış edərək dedi ki, bu proses əlavə maliyyə vəsaiti tələb edir. Azərbaycan bir ölkə və investor olaraq buna hazırdır. Lakin bu məsələdə komandanın digər üzvlərinin də iştirakı zəruridir.

### Yeni İpək yolu Xəzər üzərindən keçə bilər

İlham Əliyevin qətiyyətli və müstəqil siyasi kursu Azərbaycanı ən yüksək tribunalarda tanıtdırmaqda davam edir. Prezidentin İtaliyaya səfəri də bu baxımdan xüsusi diqqət çəkir. İtaliyaya səfər çərçivəsində strateji sahələr üzrə yeni tərəfdaşlıq platformalarının yaradılması Avropanın ən böyük iqtisadiyyatlarından birinə sahib olan İtaliya ilə Azərbaycan arasında yeni səhifə açdı.

Azərbaycan Prezidenti dünyanın mühüm məsələlərinin müzakirə edildiyi və nüfuzlu dövlət başçılarının, ictimai-siyasi xadimlərin, politoloqların iştirak etdiyi forumdakı çıxışında beynəlxalq ictimaiyyətə önəmli mesajlar verməklə, yeni geopolitik durumun real mənzərəsini yaratdı, yeni siyasi-iqtisadi münasibətlərin zəruriliyini diqqətə çatdırdı. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolundan danışan Prezident bildirdi ki, Avropanın enerji təhlükəsizliyi ilə bağlı bu gün yalnız təbii qaz müzakirə mövzusu deyil, həmçinin danışıqlara enerji bazarının digər seqmentləri, xüsusilə elektrik enerjisi, "yaşıl enerji" də daxildir.

İlham Əliyevin İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsi də beynəlxalq ictimaiyyət tərəfindən maraqla qarşılandı. Prezident müsahibəsində bir daha Azərbaycanın iqtisadi imkanlarını dəyərləndirərək dünya ictimaiyyətinin, xüsusən də böyük investor şirkətlərin diqqətini ölkəmizə yönəltdi.

Prezident - "Yeni İpək yolunun Xəzər üzərindən keçməsi və zəruri infrastruktur olduğu halda ölkəniz kommersiya mərkəzinə çevrilə bilər. Bu haqda nə vaxtsa düşünə bilərdiniz?" - sualına cavabında vurğuladı ki, Azərbaycan bunun üzərində illər öncə çalışmağa başlayıb. Bunun üçün Xəzər dənizində ən böyük ticarət limanı inşa edilib. Bu gün o, tam gücü ilə çalışır və artıq onun genişləndirilməsi zərurəti də yaranıb. Çünki kran 25 milyon ton yük və 1 milyon konteyner qəbul etmək imkanına malik olmalıdır. Bundan başqa, Azərbaycan özü gəmiqayırma zavodu inşa edib və hazırda Xəzər dənizinin şərq sahillərindən neft və digər yük daşıyan hər növ gəmiləri inşa etmək iqtidarındadır. Azərbaycanın inşa etdiyi dəmir və avtomobil yolları ilə Çin və Mərkəzi Asiya ölkələrindən gələn yüklər Avropanın şimalına qədər gedib çıxır. Bu ixrac əməliyyatları hər il getdikcə artmaqdadır.

Bütün bunlar sübut edir ki, açıq dənizə çıxışı olmayan ölkə olaraq Azərbaycan regional nəqliyyat mərkəzinə çevrilir - təkcə şərqdən cənuba və geriyə deyil, həmçinin şimaldan cənuba yol açır. "Cənub-Şimal nəqliyyat dəhlizi" Azərbaycandan keçir və başqa marşrut variantı yoxdur. Həmin dəhliz, məsələn, Rusiya şirkətləri üçün əhəmiyyətli olur, çünki bu gün sanksiyalar səbəbindən ruslar Avropa məntəqələrinə yük daşıya bilmirlər. Yəni Azərbaycandan keçərək İrana və Fars körfəzi sahillərinə gedən marşrut Rusiya şirkətləri üçün ən cəlbedicidir. Bunu Fars körfəzindən Azərbaycan vasitəsilə Rusiyaya uzanan marşrut haqqında da demək olar. "Biz iki dəhliz üzərində yerləşirik - Cənub-Şimal və Şərq-Qərb. Əlbəttə, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və yeni iş yerlərinin yaradılmasına imkan verir. Biz "Cənub-Şimal nəqliyyat dəhlizi"nin "Şərq-Qərb dəhlizi" qədər vacib olacağı qənaətindəyik. Bizim üçün onlar bərabər dərəcədə əhəmiyyətlidir. Çünki hər iki dəhliz bizim ərazimizdən keçir", - deyə Prezident bildirib.

Azərbaycan Avrasiyada əsas enerji təminatçısı rolunu daha da genişləndirir. İlham Əliyevin reallaşdırdığı qlobalmiqyaslı layihələr bu gün Azərbaycana həm iqtisadi, həm də siyasi dividendlər qazandırmaqdadır. Cənubi Qafqazın lider dövləti bununla da regionda əsas söz sahibi olduğunu təsdiqləyir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Regional liderlikdən qlobal nüfuz sahibliyinədək

## Azərbaycan milli maraq və mənafelərini qətiyyətlə təmin edən dövlətlər sırasındadır

*Əvvəli 1-ci səh.*

Bu siyasətin müstəqil olması, yalnız və yalnız xalqın və dövlətin maraqlarına xidmət etməsi güclü Azərbaycan dövlətini xarakterizə edən əsas məqamdır. Sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində keçirilən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bugünün və sabahın ssenarisi" mövzusunda forumda Prezident İlham Əliyev bununla bağlı deyib: "Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq. Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb. Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik".

Bu gün müasir beynəlxalq münasibətlər sisteminin bir çox reallıqları təsdiq edir ki, dövlətin müstəqilliyi müstəqil siyasət yürütmək demək deyil. Başda Ermənistan olmaqla bir çox ölkələri misal göstərmək olar ki, onların hətta daxili siyasət kursu belə xaricdən diktə olunur. Müstəqil siyasət yürütmək isə qlobal proseslərdə fəal iştirak etmək, mövqe ortaya qoymaq, öz dövlətçiliyinin mənafelərini təmin edə bilmək deməkdir. Bu baxımdan Azərbaycanın qlobal siyasi-iqtisadi proseslərdə iştirak göstəriciləri, həyata keçirdiyi enerji strategiyası, Xəzərin karbohidrogen ehtiyatlarının tarixdə ilk dəfə olaraq alternativ marşrutlarla dünya bazarlarına çıxarılması, bu yolda bir çox beynəlxalq təzyiqləri dəf etməsi həyata keçirilən müstəqil siyasətdən xəbər verir.

Azərbaycan dövləti milli maraqları ilə bağlı qarşıya qoyduğu bütün məqsədlərə nail olub. Respublikamız təşəbbüskarı olduğu bütün enerji layihələrinin həyata keçirilməsini təmin edib. Bu yolda hansısa beynəlxalq təzyiqlər, erməni lobbisinin yaratmaq istədiyi bütün maneələr qətiyyətlə dəf olunub, iflasa uğradılıb. Enerji dəhlizləri Azərbaycanın regionda aparıcı dövlətə çevrilməsində əsas rol oynayıb.

Azərbaycanın bölgənin lider dövləti olmasını şərtləndirən amillərdən biri beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında yaxından iştirakıdır. Tranzit imkanlarının müasir dövrdə ölkənin iqtisadiyyatında, regional və beynəlxalq mövqeyində rolunu ilk gündən düzgün qiymətləndirən Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq qlobal nəqliyyat dəhlizləri məhz ölkəmizdən keçir.

Ölkəmizi regionda aparıcı dövlət kimi şərtləndirən əsas məsələ isə malik olduğumuz iqtisadi potensialdır. Hazırda Cənubi Qafqaz iqtisadiyyatının əsas hissəsi Azərbaycanın payına düşür ki, bu da respublikamızın regiondakı mövqelərini daha da möhkəmləndirir.

### Dünyada söz sahibi

Bütün bunların nəticəsi kimi Azərbaycan yalnız regionun lider ölkəsi deyil, həm də dünyada söz sahibi olan dövlətdir. Azərbaycan artıq uzun müddətdir ki, bir sıra aktual qlobal problemlərin həllində aktiv iştirak edən ölkə kimi tanınır. Məhz respublikamızın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri həm regionun, həm də Avropanın neftə və qaza olan tələbatını əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Azərbaycan mühüm forumlara evsahibliyi etməklə, beynəlxalq platformalarda dünyada sülhün təmin olunmasına layiqli töhfələr verir. Rəsmi Bakı münaqişələrin, qarşıdurmaların, gərginliklərin aradan qaldırılmasında fəal rol oynayır, barışdırıcı missiya həyata keçirir.

Bütün bunların davamı kimi Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış edir. Hazırda region dövlətləri arasında mövcud olan çoxtərəfli əməkdaşlıq formatları buna əyani sübutdur.

Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi isə müasir müstəqillik tariximizin ən böyük, ən əlamətdar hadisəsi olmaqla yanaşı, Azərbaycanın regionda və dünyada nüfuzunu daha da yüksəltdi, mövqelərini möhkəmləndirdi. İndi Azərbaycan qlobal miqyasda müharibədə qalib dövlət kimi tanınır.

İlham Əliyevin həyata keçirdiyi siyasət dövlətimizin və xalqımızın milli maraqlarını layiqincə təmin edərək dünya çapında da böyük ehtiramla izlənilir. Dünyanın aparıcı siyasi və iqtisadi dairələrinin Prezident İlham Əliyevə müxtəlif vaxtlarda, əlamətdar günlərdə ünvanladığı məktublar da Azərbaycanın uğurlarını artıraraq beynəlxalq miqyasda söz sahibinə çevrilməsinin qlobal etirafıdır. ABŞ, Rusiya və Çin kimi dövlətlərin, habelə Avropa İttifaqının rəhbərləri Azərbaycan Prezidentini etibarlı tərəfdaş, dünya səviyyəli siyasi lider kimi qəbul edir, onunla əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirirlər.

Prezident İlham Əliyevin yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıdıb. Azərbaycan özünün müstəqil siyasi kursuna müvafiq olaraq yaxın qonşu və uzaq dövlətlərlə səmərəli əlaqələrə, qarşılıqlı faydalı münasibətlərə malikdir. Bu münasibətlər bəzi ölkələrlə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Bu gün dünya nizamı, beynəlxalq münasibətlərdəki situasiyalar elədir ki, hər bir dövlət nəinki müstəqil xarici siyasət yürütməyə, hətta öz maraqlarını qorumağa qadir olmalıdır. Azərbaycanın bugünkü inkişaf templəri, dünya birliyindəki yeri və nüfuzu, beynəlxalq münasibətlər sistemindəki mövqeyi ölkəmizin tam müstəqil xarici siyasət yeritdiyini, özünün milli maraqlarını uğurla qoruduğunu təsdiq edir. Bütün bunlara ölkəmiz tək özünün geostrateji üstünlüyü, zəngin karbohidrogen ehtiyatlara malik olması səbəbindən nail olmayıb. Ən əsas səbəb Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli, cəsarətli və müstəqil siyasətdir. Bunun nəticəsidir ki, Azərbaycan regionda lider, dünya birliyində söz sahibi olaraq milli maraqlarını bütün səviyyələrdə layiqincə təmin edir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan qazına tələbatın artması gündəmdə daha vacib yer alır

## Prezident İlham ƏLİYEV: "Qarşıda görüləsi çox iş dayanır"

*Əvvəli 1-ci səh.*

Bu, xırda məsələ deyil. Buraya sərmayə yatırılmalı, texniki imkanlar genişləndirilməlidir. Çünki hazırda Avropaya qaz nəql edən boru kəmərimiz TAP-ın ötürmə qabiliyyəti 10 milyard kubmetrdir. Yəni biz onu 20 milyard kubmetrə çatdırmalıyıq. Bu isə maliyyə vəsaiti və səhmdarlar arasında razılıq tələb edir və bu, bir prosesdir".

Potensial olaraq ölkəmiz Avropaya 20 milyard kubmetrdən artıq da qaz ixrac edə bilər. Lakin nəzərə alınmalıdır ki, Avropa Azərbaycan üçün yeganə bazar deyil. Türkiyəni İtaliya ilə eyni həcmdə qazla təchiz edirik. İxrac 10 milyard kubmetr təşkil edir və Türkiyə bazarının tələbatı da artmaqdadır. Gürcüstan bazarı o qədər böyük olmasa da, bu qonşu ölkəyə də mavi yanacaq verilir. Bu il ölkəmizin ümumi ixracı 22-23 milyard kubmetr təşkil edəcək.

"Cənub qaz dəhlizi" üç boru kəmərindən ibarət inteqrasiya edilmiş ixrac xətləri sistemidir. Bu dəhliz Azərbaycandan və Gürcüstandan keçən genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), Türkiyənin ərazisi boyu 1850 kilometr yol qət edən TANAP (Trans-Anadolu Qaz Boru Kəməri ) və sonuncu seqment olan TAP-ın birləşməsindən yaranıb. Prezident İlham Əliyev dəhlizi belə xarakterizə edir". O, İtaliyaya qədər uzanır. Bu, 3500 kilometr uzunluğunda mürəkkəb texniki infrastrukturdur. Onun bir hissəsi hündür dağlardan, bir hissəsi isə dənizin dibindən keçir. 2020-ci ilin son günü - dekabrın 31-də həmin mühüm layihənin yekun hissəsi olan TAP istifadəyə verildi. Həmin dövrdən etibarən bir il yarımdır ki, Azərbaycan Türkiyə və Gürcüstandan əlavə Avropanın üç ölkəsinə təbii qaz ixrac edən ölkəyə çevrilib. Bir il yarım ərzində artıq Avropaya 13,5 milyard kubmetr qaz nəql edilib ki, onun 11,7 milyard kubmetri İtaliyanın payına düşür. Bu il biz həcmi artırmağı və İtaliya bazarına 10 milyard kubmetr qaz nəql etməyi planlaşdırırıq. Ümumi ixracımız 22 milyard kubmetrdən artıq olacaq və burada artım üçün çox böyük potensial var".

Təbii ki, qazın nəqlini artırmaq üçün eyni zamanda TANAP da genişləndirilməlidir. Bu xəttin ötürücülüyü 16 milyard kubmetrdən 32 milyard kubmetrə çatdırılmalıdır. Doğrudur, bunun üçün yeni kəmər tikmək deyil, yalnız yeni kompressor stansiyalarını istifadəyə vermək lazım gələcək. Bütün bunlar isə böyük vəsait, ümumiyyətlə, kompleks şəklində həyata keçiriləcək geniş tədbirlər tələb edir. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını xatırladaraq dövlət başçısı demişdir: "Bu, bizim enerji resurslarımızın daha da inkişaf etdirilməsi istiqamətində atılmış çox vacib addımdır. Mən bunu gələcək fəaliyyətimizin yol xəritəsi adlandırdım. Biz Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırırıq və əminəm ki, buna nail olacağıq. Bunun üçün isə vacib addımlar atılmalıdır - siyasi qərarlar, texniki tədbirlər və əlbəttə ki, sərmayə. Çünki "Cənub qaz dəhlizi"nin müxtəlif seqmentlərinin imkanları fərqlidir. TANAP-ın ötürmə qabiliyyəti 16 milyard kubmetrdir. Biz onu 32 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. TAP-ın ötürmə qabiliyyəti 10 milyard kubmetrdir, hazırda o, tam gücü ilə işləyir və biz onun imkanlarını ən azı 20 milyard kubmetrə çatdırmalıyıq. Bu, əlbəttə ki, əlavə maliyyə vəsaiti tələb edir. Biz bir ölkə və investor olaraq buna hazırıq. Lakin burada komandamızın digər üzvlərinin də iştirakı zəruridir".

Azərbaycan qaz ixracı ilə bağlı Avropanın üç ölkəsi - İtaliya, Yunanıstan və Bolqarıstanla müqavilələr imzalamışdır. Lakin Avropanın digər ölkələrinin də Azərbaycandan qaz idxalına tələbatı var. Xüsusilə Rusiya-Ukrayna müharibəsi başlayandan qaz ixracının həcminin artırılması və ya ixraca başlanılması ilə bağlı 10-dan artıq ölkədən rəsmi müraciətlər almışıq. Bunların arasında indiyə qədər bizdən onsuz da qaz alan ölkələr - Türkiyə, Gürcüstan, İtaliya, Bolqarıstan da var. Prezidentimiz bunu qiymətləndirdiyimizi qeyd edərək bildirir ki, həmin məsələdə də xeyli tədbirin gerçəkləşməsi vacibdir. Yəni potensial istehlakçılarla fəal dialoq, sərmayədarlarla, maraqlı tərəflərlə həm istehsalat, həm də distribütor işlərində, həmçinin qiymətlə bağlı danışıqlar aparılmalıdır. Başqa sözlə, qarşıda görüləsi çox iş dayanır.

Qaz ixracının artırılmasının şərtləri sırasında hasilatın artırılması da önəmli yer tutur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatlarının həcmi ən azı 2,6 trilyon kubmetr təşkil edir. Hazırda "Cənub qaz dəhlizi"ni ehtiyat mənbəyi "Şahdəniz" yatağıdır. Xəzərin Azərbaycan sektorunda bir sıra ümid verən yataqlarda iş gedir və yaxın gələcəkdə onlardan hasilata başlanacağı gözlənilir. Lakin o da aydın həqiqətdir ki, hasilatı əldə etmək və onu artırmaq üçün yataqlara da böyük sərmayə qoyulmalı və texniki imkanlar genişləndirilməlidir.

Prezident İlham Əliyev sözügedən müsahibə və çıxışlarında artan ehtiyacı təmin etmək üçün sıx əməkdaşlığa və əlaqələndirməyə ehtiyac olduğunu bir daha vurğulayıb. Tərəfdaşlarının etibar və inamını qazanmış ölkəmizin onların ehtiyaclarını qarşılamaq üçün əlindən gələni əsirgəməyəcəyi bildirilib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# REGİONLAR



# Abadlıq yoldan başlayır



## Qubada 6 kəndi birləşdirən yolun təmiri turizmin inkişafına da dəstək verəcək



**Son illər Qubada yolların təmir edilməsinə xüsusi önəm verilir. Bunun bir səbəbi də rayonda turizmin inkişafına dəstək verməkdir.**

Qubada elə kəndlər var ki, infrastruktur yeniliyi həyata keçirilməklə yaxın gələcəkdə oradan turizm məkanı kimi istifadə edilə bilər. Belə məkanlardan biri də Tüləkəran İnzibati Ərazi Dairəsidir. Dairənin Gültəpə, Möhüc, Tülər, Yuxarı Tüləkəran, Aşağı Tüləkəran, Yenikənd kəndlərinin sakinləri uzun müddət idi yollarının narahatlığından əziyyət çəkirdilər. Odur ki, kənd yollarının təmirə başlanması sakinlərin hədsiz sevincinə səbəb olub.

Gültəpəlilər yolların təmir və bərpasına start verilməsini yüksək qiymətləndirirlər. Kənd yüksək ərazidə yerləşir. Burada kənd və dağ turizmi üçün ideal şərait var. Gültəpə sakini Nuru Qarayev deyir:

- Turistlərin buralara gəlməsi üçün birinci növbədə rahat yol olmalıdır. Bizim yolumuz isə təmir edilmədiyindən çox az adam istirahət üçün buraya gəlir. Gültəpədə yayın qızmarında belə havanın temperaturu 25-30 dərəcəni keçmir. Yayın isti günlərində gecələr yorğansız yatmaq mümkün deyil. Az qala iki gündən bir yağış yağır. Demək istəyirəm ki, buralar sərin yayı ilə istirahət üçün çox əlverişlidir. Lakin yollar palçıq olanda buraya kim gələr ki!? Yağışdan sonra yollarımız keçilməz olur. Çox sevinirik ki, vəziyyət dəyişəcək, rahat yolumuz olacaq. Yaxşı deyiblər ki, hər şey yoldan başlayır.





Kənd sakinləri Bədəl Şükürov, Qəhrəman Ədilov, Hacımirzə Zülfüqarov da bizimlə söhbətdə bildirdilər ki, rayon mərkəzindən 17 kilometrlik məsafədə yerləşən Gültəpəyə yaxşı təmirli yolla gəlmək mümkün olacaq. Turistin Xınalığa, Cekə və digər qədim obalara qalxması qış və payızda çətinləşir. Bəzən qış vaxtı ay ərzində heç bir turist marşrutu Xınalığa gedib çıxa bilmir.

- Gültəpə və həmin istiqamətdə yerləşən kəndlərin də qışı soyuq və şaxtalı olur, - deyə kənd sakini Akif Bəşirov bildirir. - Vallah, bu yerləri həmin ərazilərdən fərqləndirən heç nə yoxdur. Bəzən Qubanın mərkəzində, magistralətrafı kəndlərdə havalar sakit keçəndə bizim tərəflərdə qar dizdən olur. Bir dəfə rayon mərkəzində iki nəfər mənə yaxınlaşıb qarlı bir kəndə səfər etmək istədiklərini bildirdilər. Mənim onlara bələdçi olmağımı xahiş etdilər. Bu çətin yollarla onları kəndimizə qonaq gətirdim. Qonaqlar Gültəpədən ayrılanda birinin dediyi söz indi də yadımdam çıxmır. Dedi ki, bu kənd Xınalıq qədər gözəldir. İnanın, növbəti ildə o, bu dağlara bir dəstə qonaqla gəldi.

Səmayə Qarayeva uzun müddətdir Bakıda yaşayırdı, bir neçə ildir doğma Gültəpəyə qayıdıb. Hamı tərəfindən hörmətlə qarşılanan Səmayə, demək olar ki, kəndin bütün işlərində öndə gedənlərdəndir. Yolun çəkilişinə sevinən qadın başqa arzularını da bizimlə paylaşdı:

- Qazımız da yoxdur. Bu da yaşı yüz illərlə ölçülən ətraf meşələrin qırılmasına gətirib çıxarır. Yaxşı olar ki, bu problem də aradan qaldırılsın. Əlaqədar təşkilatlar yaxın zamanda bir neçə kəndə təbii qazın çəkiləcəyinə söz verib. Yəqin kəndarası yollar da təmir ediləcək.

Geri qayıdanda yolda təmirlə bağlı ilkin işlərə başlandığının şahidi olduq. Öyrəndik ki, eyni zamanda 6 kəndə gedən işıq xətlərinin dirəkləri də dəyişdiriləcək. Bir çox kənddə artıq davamlı internet də var. Yağışlı havalarda suyun nohurlar vasitəsilə axıdılması, asfaltın yuyulmaması üçün bərkitmə işlərinə start verilib. "İşiniz uğurlu olsun" deyirik. 6 minə yaxın insanın həyat şəraitini dəyişəcək bu yolun istifadəyə verilməsində görüşmək ümidi ilə yola düzəlirik.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Şəhidin xatirəsi anıldı



**Ağdam rayonunda Vətən müharibəsi şəhidi İsizadə Elvin Azim oğlunun doğum günündə xatirəsi anılıb. Anım mərasimində şəhidin ailə üzvləri, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, şəhid ailələri, qazilər, din xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasim iştirakçıları əvvəlcə şəhidin məzarını ziyarət edib, ruhuna dualar oxuyublar.**

Qeyd edək ki, Elvin Azim oğlu İsizadə 2001-ci il sentyabrın 4-də Ağdam rayonunun Qaradağlı kəndində anadan olub. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 26-da Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Elvin İsizadə ölümündən sonra Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Gəncədə yüksək balla ali məktəblərə daxil olan gənclərlə görüş keçirilib



**Gəncədə yüksək bal toplayan abituriyentlərlə görüş keçirilib. Görüşü giriş sözü ilə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov açaraq Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə göstərdikləri xüsusi diqqət və qayğıdan danışıb.**

O bildirib ki, ölkəmizdə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür, yeni məktəb binaları, əlavə tədris korpusları inşa edilir, mövcud məktəblərdə əsaslı təmir işləri aparılır. Bütün bunlar gənclərin yüksək səviyyədə təhsil almalarına və müstəqil respublikamızın layiqli vətəndaşları olmalarına şərait yaradır. Şəhər rəhbəri gəncləri əldə etdikləri uğurlar münasibətilə təbrik edərək, onlara xoş arzularını çatdırıb və gələcək həyatlarında müvəffəqiyyətlər arzulayıb.

Sonra Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinn rəisi Anar Qədiməliyev çıxış edərək qeyd edib ki, 2021-2022-ci tədris ilində Gəncə şəhər ümumtəhsil məktəblərini 2816 nəfər gənc bitirib ki, bunlardan da 1249 nəfəri respublikanın ali məktəblərinə, 158 nəfəri xarici ölkələrin ali məktəblərinə qəbul olunub. 49 nəfər məzun 600-dən, 12 nəfər isə 650-dən yuxarı bal toplayıb. Bununla yanaşı, M.C.Paşayev adına 39 nömrəli tam orta məktəbin 11B sinfinin bütün məzunları tələbə adını qazanıblar.

Çıxış edən məzunlar onlara göstərilən etimadları doğruldacaqlarına söz verərək, ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Ali məktəblərə yüksək balla daxil olan məzunlara hədiyyələr təqdim olunduqdan sonra Niyazi Bayramov Gəncə şəhər M.C.Paşayev adına 39 nömrəli tam orta məktəbin ingilis dili müəllimi, 11B sinfinin rəhbəri Jalə Məmmədovanı Gəncə şəhərinin təhsil sahəsindəki səmərəli fəaliyyətinə görə "Təşəkkürnamə" ilə təltif edib.

Sonda xatirə şəkli çəkdirilib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Könüllülərə sertifikatlar verildi



**Mingəçevir Şəhər İcra Hakimiyyəti "Könüllülük fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz strukturlarında könüllülük fəaliyyətini genişləndirib.**

Bu şəhərdə könüllülük fəaliyyətinə 2019-cu ilin aprel ayından başlanılıb. Könüllülük fəaliyyətinə gənclər 2 ay müddətinə qoşularaq müxtəlif sosial bacarıqlarını göstərirlər. Şəhər icra hakimiyyətində təcrübə keçən könüllülərin növbəti qrupuna sertifikat verilib. Beləliklə, 15-ci qrup yola salınıb. İndiyə qədər 63 könüllü sertifikatlar alıb.

Könüllülər gündəlik iş proseslərində aktiv şəkildə iştirak ediblər. Onlar çıxış edərək təcrübə müddətində bir çox biliklərə yiyələndiklərini, şəhər icra hakimiyyəti aparatının kollektivi tərəfindən qayğı ilə əhatə olunduqlarını və gələcək fəaliyyətlərində bu təcrübələrdən istifadə edəcəklərini bildiriblər.

Könüllülərlə görüşən şəhər icra hakimiyyəti başçısı İlham İsmayılov ölkə ərazisində baş tutan bütün beynəlxalq tədbirlərdə, eləcə də dövlət orqanlarının gündəlik fəaliyyətində könüllülərin misilsiz xidmətlərinin olduğunu vurğulayıb.

*L.QULİYEV,*
*"Azərbaycan"*

# "Yalama Aqropark"da silosluq qarğıdalı biçini aparılıb

**Bu il "Yalama Aqropark"da 349 hektar dənlik, 262 hektar silosluq qarğıdalı əkini aparılıb. Aqroparkda əsas qaba yem komponenti olan silosluq qarğıdalı biçininin ilkin mərhələsi artıq yekunlaşıb.**

Silosluq qarğıdalının biçininə avqust ayının əvvəlindən başlanılıb. İlkin olaraq 125 hektar silosluq qarğıdalı sahələri biçilib. Təkrar əkin aparılan 137 hektar yemlik qarğıdalı sahələri isə sentyabr ayında biçiləcək.

"Yalama Aqropark" MMC-nin əkinçilik xidmətinin rəhbəri Rza Rzayev bildirib ki, ilkin mərhələdə biçilən silosluq qarğıdalı əkinindən 5 min ton yaşıl kütlə götürülüb. Orta hesabla hər hektardan 40 ton məhsuldarlıq əldə edilib.

"Yalama Aqropark"da qarğıdalı üzrə yüksək məhsuldarlıq səviyyəsinə nail olunması üçün istehsal sahələri üzrə innovativ yanaşma və müasir texnologiyadan istifadə olunur. Son illərdə aqroparkın sahələrində dənlik qarğıdalı əkini üzrə orta məhsuldarlıq ümumilikdə 15 ton və ondan yuxarı olub. Bu, ölkə üzrə qeydə alınan ən yüksək göstəricidir.

Aqroparkda sentyabrın 15-dən dənlik qarğıdalının toplanmasına başlanılacaq. Əldə olunan məhsul aqroparkdakı heyvandarlıq təsərrüfatlarının əsas qaba yem komponenti ilə təmin olunmasında istifadə edilir.



Aqroparkın əkin sahələrində yerli iqlim şəraitinə uyğun ənənəvi sortlarla yanaşı, digər hibrid qarğıdalı sortları da becərilir.

Qarğıdalı sahələrindən yüksək məhsul əldə etmək üçün bitkilərə aqrotexniki qulluq edilir. Əkin sahələri ziyanverici və alaq otlarına qarşı dərmanlanır, herbisid səpilir. Qarğıdalı sahələri ay ərzində müasir suvarma şəbəkəsi vasitəsilə 7-8 dəfə suvarılır. Aqroparkın ərazisində qarğıdalı ilə yanaşı, arpa, yonca, soya bitkiləri də becərilir.

Təsərrüfatın bu il üzrə ümumi əkin sahəsi 1500 hektardır. Bu ilin məhsulu üçün aqroparkın əkin sahələrində 583 hektar dənlik arpa əkilib. Bundan əlavə, 200 hektar da qarışıq yem üçün əkin aparılıb. Aqroparkda 59 hektar sahədə toxumluq arpa da əkilib. Həmin sahələrdə məhsuldarlıq 65 sentnerdən çox olub.

Hazırda "Yalama Aqropark"da 3105 baş simmental cins heyvan bəslənilir ki, onlardan 980 başdan çoxu sağmal heyvandır. Təsərrüfatda il ərzində 1350 baş bala əldə edilib.

"Yalama Aqropark"da innovativ üsullardan və müasir texnologiyadan istifadə edildiyindən istehsal sahələri üzrə ölkədə ən yüksək məhsuldarlıq səviyyəsinə nail olunub. Hazırda müəssisədə gündəlik süd istehsalı 18-20 ton təşkil edir. Aylıq göstərici isə 650 tona yaxındır. Bir il ərzində diri çəkidə ət istehsalı isə 360 tondan çoxdur.

Qeyd edək ki, Azərbaycanda yaradılan ilk aqropark Xaçmaz rayonunun Yalama qəsəbəsində yerləşir. 2016-cı il sentyabrın 8-də Prezident İlham Əliyevin iştirakı ilə "Yalama Aqropark"ın açılış mərasimi keçirilib. Layihənin ilkin mərhələsinə uyğun olaraq, "Yalama Aqropark"da 3 min başlıq cins iribuynuzlu heyvandarlıq kompleksi, istehsal gücü saatda 5 ton olan yem zavodu yaradılıb.

# Bu il Ağcabədidə 40 min tona yaxın pambıq istehsalı gözlənilir

**Respublikamızın ən iri pambıqçılıq rayonlarından olan Ağcabədidə məhsul yığımına hazırlıq görülür.**

Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, 2022-ci ildə rayonda 11 min 838,58 hektar sahədə pambıq becərilib. Yüksək məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərilmə qaydalarına ardıcıl və düzgün əməl olunub, cərgələrarası becərmələr, alaq otlarına və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb, bitkilər tələbata uyğun optimal müddətdə mineral gübrə və suvarma suyu ilə təmin edilib. Nəticədə yaxşı çıxış alınıb, barlı kollar yetişib. Bu isə məhsulun bol olacağından xəbər verir.

Hazırda pambıq yığımına hazırlıq işləri görülür - kənd təsərrüfatı texnikaları hazır vəziyyətə gətirilir, digər zəruri aqrotexniki və təşkilati tədbirlər həyata keçirilir. Pambıq yığımına 51 kombayn, 153 traktor, 302 qoşqu, 8 yükləyici, 45 çiləyici cəlb ediləcək. Yaxın günlərdə defolyasiya işlərinə başlanılacaq. Bu mövsüm rayon üzrə 40 min tona yaxın pambıq istehsalı gözlənilir.

Qeyd edək ki, 2021-ci ildə Ağcabədi rayonunda 11 min hektar sahədə pambıq əkilib, 33 min 517,213 ton məhsul istehsal edilib, orta məhsuldarlıq 30,47 sentner olub.

# Qaxın meyvə bağlarından indiyədək 7,4 min tondan çox məhsul yığılıb

**Qax rayonunun meyvə bağlarında məhsul yığımı davam edir. İndiyədək bağlardan 7 min 465 ton məhsul tədarük olunub. Bu barədə Qax Rayon Statistika İdarəsindən məlumat verilib.**

Bildirilib ki, hazırda rayonda meyvə bağlarının ümumi sahəsi 12 min 16,2 hektardır. Bu bağların 10 min 186,9 hektarını fındıq bağları təşkil edir. İndiyədək bağlardan 2072 ton fındıq, 1158,8 ton şaftalı, 1135,8 ton alma, 852,3 ton armud, 481,8 ton badam, 454,8 ton gavalı, 268,8 ton gilas və digər meyvələr yığılıb. Xurma, nar, şabalıd, qoz yığımına isə hələlik başlanılmayıb.

İdarədən verilən məlumata görə, hazırda rayonda 152 hektar üzüm bağı var. İndiyədək bağlardan 540 tonadək məhsul yığılıb.

# "Dəmir yumruq" Ermənistanı sülhə məcbur edir

## "Bizim regionda vəziyyət sülhə doğru inkişaf edir, mən buna ümid edirəm..."

*Əvvəli 1-ci səh.*

Eyni zamanda Azərbaycan hər fürsətdə sülhə maneçilik törədən davranışlar sərgiləyən, ölkəmizə qarşı təxribatlar törədən işğalçı Ermənistanı da qalib ölkə olaraq diktə etdiyi bütün şərtlərə boyun əyməyə və sülh bağlamağa məcbur edir.




### Sülh prosesi ilə bağlı real addımlar atmağın zamanıdır

2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatları ilə qazandığımız diplomatik qələbələr ötən ilin 26 noyabrında Soçi bəyanatı ilə daha da möhkəmlənib. Avropa İttifaqının vasitəçiliyi ilə keçən ilin dekabrından başlayan "Brüssel prosesi" sayəsində isə üçtərəfli bəyanatlarda nəzərdə tutulan məsələlərin real müstəvidə həlli ilə bağlı əhəmiyyətli irəliləyişlərə nail olunub. Bu prosesdə Azərbaycan daim reallıqlara əsaslanan və regionda təhlükəsizliyin, əməkdaşlığın, rifahın təmin edilməsinə yönəlik təşəbbüslərlə çıxış edib.

Bu ilin 6 aprelində keçirilən üçüncü Brüssel görüşündə isə Azərbaycanın irəli sürdüyü 5 prinsip Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən qəbul edildi. Yəni bu, o deməkdir ki, iki ölkə arasında imzalanacaq sülh müqaviləsi rəsmi Bakının irəli sürdüyü məlum baza prinsipi əsasında qurulacaq.

Avqustun 31-də Brüsseldə keçirilən üçtərəfli görüşün yekunu isə artıq sülh prosesi ilə bağlı real addımlar atmağın mütləqliyini ortaya qoydu. İki ilə yaxındır ki, hər cür riya, hiylə, təxribatçı əməllərlə sülhə nail olmağı yubadan Ermənistanın bundan yayınmaq yolları bağlandı və o, sülh razılaşmasına məcbur edildi.

### Azərbaycan yüksək əzm nümayiş etdirir

Azərbaycan Vətən müharibəsinin qələbə ilə başa çatmasının üzərindən ötən müddət ərzində Ermənistana iki ölkə arasında münasibətlərin normallaşdırılması, sülhə nail olunması üçün təkmil sülh modeli irəli sürür. Həmçinin qalib Azərbaycan sülh sazişinin bağlanması istiqamətində üzərinə götürdüyü bütün öhdəlikləri vaxtından əvvəl yerinə yetirərək, böyük əzm və iradə nümayiş etdirir.

Buna misal olaraq, Ermənistanın növbəti təxribatına cavab olaraq "Qisas" əməliyyatının keçirilməsi və ordumuzun Qırxqız yüksəkliyini, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürməsi, eləcə də yeni Laçın avtomobil yolunun vaxtından xeyli əvvəl istifadəyə verilməsi ilə Laçın şəhəri, Zabux, Sus kəndlərinin boşaldılması buna əyani sübutdur.

Amma keçən vaxt ərzində qarşı tərəfin bu istiqamətdə hansısa konkret addım atdığının şahidi olmadıq. Görünür, Ermənistan hakimiyyəti prosesi yubatmaqla kimlərəsə, konkret olaraq artıq çoxdan öz ölü missiyasını başa vurmuş ATƏT-in Minsk qrupuna yenə də hansısa ümid bəsləyir.

Lakin indi onlar da yaxşı anlayırlar ki, daha 30 ildir kölgəsində gəzdikləri, güvəndikləri dağlara çoxdan qar yağıb. Axı sözügedən qurum öz "missiya"sını uğursuzluqla başa vurub. Onu da gözəl bilirlər ki, Azərbaycanın səbri hüdudsuz deyil və danışıqlar prosesi sonsuzadək masa üzərində qala bilməz.

Dördüncü Brüssel görüşünün nəticələri də bunu deməyə əsas verir. Artıq bir ay müddətində xarici işlər nazirliklərinin xətti ilə sülh sazişinin mətni üzərində işə başlamaq üçün qruplar yaratmaq barədə razılıq əldə olunub. Eləcə də yeni sənəddə nə Qarabağ mövzusu var, nə də ATƏT-in Minsk qrupunun adı çəkilir.

Digər tərəfdən əldə olunacaq sülh elə Ermənistanın özünə də faydalıdır və hazırda çabaladığı böhran bataqlığından çıxması üçün vacibdir.

### Ermənistanın başqa yolu yoxdur

Sülh prosesinin gedişatı ilə bağlı Prezident İlham Əliyev İtaliya qəzetinə müsahibəsində bildirdi ki, Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş naziri arasında üçtərəfli görüş zamanı bununla bağlı razılığa gəlinib.

Dövlət başçısı onu da xüsusi vurğuladı ki, bu razılaşmaya gəlmək üçün Ermənistana vaxt lazım oldu: "...Bir ay müddətində Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh sazişi ilə bağlı praktiki danışıqlara başlamaq məqsədilə görüşəcəklər. Bu, bizim İkinci Qarabağ müharibəsinin bitməsindən demək olar ki, dərhal sonra irəli sürdüyümüz təklif idi. Biz bildirdik ki, bizim sülhə, sülh sazişinə ehtiyacımız var. Bununla razılaşmaq üçün Ermənistana təqribən iki il lazım oldu".

"Zənnimcə, bu, görüşün ən mühüm nəticələrindən idi", - deyə söyləyən İlham Əliyev qeyd etdi ki, əlbəttə, bu sülh danışıqlarının gedişatından çox şey asılı olacaq: "Zaman çərçivəsi və məzmun nədən ibarət olacaq. Hesab edirəm ki, biz bir neçə ay ərzində sülh sazişini yekunlaşdırıb imzalaya bilərik. Ermənistan tərəfi eyni iradə nümayiş etdirsə, zənnimcə, bu, realdır. Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib".

Göründüyü kimi, İlham Əliyev uğurlu diplomatiyası ilə regionda yeni sülh və əməkdaşlıq erasının başlanmasına çalışır. Sülhə düşmən olan Ermənistanı da Azərbaycanın şərtləri ilə razılaşmağa, Bakının irəli sürdüyü və sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərin qəbuluna məcbur edir.

Ermənistan hakimiyyəti istəsə də, istəməsə də, sülh müqaviləsini tezliklə imzalamağa məhkumdur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan bərpaolunan enerji sahəsində də etibarlı tərəfdaş kimi tanınır

*Əvvəli 1-ci səh.*

Söhbət zamanı həmçinin Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin ölkəmizdə bərpaolunan enerji sahəsində həyata keçirdiyi layihə barədə fikir mübadiləsi aparıldı. Onu da vurğulayaq ki, Azərbaycana yatırılan 300 milyon dollara yaxın investisiya "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir. Bu enerji stansiyasının gücü külək hesabına əldə olunan 240 meqavat təşkil edəcək. Bunun da sayəsində 300 min evə elektrik enerjisi veriləcək. Eyni zamanda 220 milyon kubmetr təbii qaza qənaət olunacaq ki, bu da atmosferə bir il ərzində 400 min ton karbon qazının atılmasını azaldacaq. Ümumiyyətlə, Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sahəsində 30 faiz elektrik enerjisinin əldə olunmasını hədəfə alıb.



Məlumdur ki, dünyada ətraf mühitə zərər vurmayan bərpaolunan enerjidən istifadəyə üstünlük verilir. Bu sahədə Avropa İttifaqı ölkələri daha fəaldır. Düzdür, Almaniya atom enerjisindən tam imtina etmək çağırışı etsə də, Fransa bu təklifə hələlik qoşulmaq fikrində deyil. Ancaq müəyyən fikir ayrılıqlarına baxmayaraq, "qoca qitə"də bərpaolunan enerjidən istifadə geniş yayılıb. Hətta Avropadakı siyasi partiyalar seçkilərdə səs qazanmaq üçün bu amildən geniş şəkildə istifadə edirlər.

Bu da səbəbsiz deyil. Son iki əsrdə sənayenin sürətlə inkişafı ətraf mühitin çirklənməsinə səbəb olub. Atmosferin həddindən çox çirklənməsi isə iqlim dəyişikliyinə səbəb olur, kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə, həmçinin insanların sağlamlığına ciddi zərər vurur. Çıxış yolu kimi alternativ enerjidən istifadə göstərilir. Bu üzdən hər yerdə bərpaolunan enerjidən geniş şəkildə istifadə yolları axtarılır və elmi tədqiqatlar aparılır. Lakin dünyanın tam bərpaolunan enerjiyə keçməsi barədə dəqiq heç nə bəlli deyil. Məlum olan odur ki, bu növ enerjidən istifadə sürətlə yayılır. Hazırda dünyada istehsal olunan enerjinin 15 faizi alternativ və bərpaolunan enerjinin payına düşür. Hətta bp kimi nəhəng neft-qaz istehsalçısı olan transmilli şirkət də bu sahədə fəaliyyət göstərməyə başlayıb.

Bu prosesdən Azərbaycan da geri qalmır. Ölkəmiz zəngin neft-qaz diyarı olsa da, gələcəyin enerji təminatını alternativ mənbələrdə görür. Azərbaycanda hələ 2011-ci ildən "Qobustan" Hibrid Elektrik Stansiyası fəaliyyət göstərir. Onu da vurğulayaq ki, ölkəmiz külək və günəş enerjisinin istehsalı üçün geniş mənbələrə malikdir. Bu bizə alternativ enerjidən daha geniş istifadə etmək imkanı yaradır. Cari il yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının və martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməlinin qoyulması da ölkəmizdə bərpaolunan enerjiyə keçidlə bağlıdır.

Prezident İlham Əliyev ölkəmizin alternativ və bərpaolunan enerjidən istifadəetmə konsepsiyası barədə demişdir: "Dünyanın, demək olar ki, gündəliyinin ön sıralarında olan "Yaşıl gündəliyi" də təsdiq edilib və biz öz növbəmizdə işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan etmişik. Artıq bir neçə su-elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var".

Qeyd etdiyimiz kimi, ölkəmizdə alternativ enerji mənbələri çoxdur. Cəbrayıl rayonunda 240 meqavatlıq günəş stansiyasının tikintisi ilə bağlı növbəti addımlar atılır. Ümumilikdə isə işğaldan azad olunan Kəlbəcər və Laçın rayonlarında 10 min meqavata yaxın potensial mövcuddur.

Dövlət başçısı İtaliyadakı çıxış və görüşlərində həmçinin bildirmişdir ki, Avropa İttifaqı ilə neft, qaz, bərpaolunan enerji mənbələri, hidrogen, enerjinin səmərəliliyi və digər məsələlərlə bağlı geniş dialoqun aparılmasına başlanılıb. Xüsusilə ölkəmizin bərpaolunan enerjinin istehsalı imkanları Avropa tərəfindən yüksək qiymətləndirilir.

Beləliklə, Avropa İttifaqı Azərbaycanla həmçinin bərpaolunan enerji sahəsində əməkdaşlıq etmək istəyir. Buna ölkəmizin külək enerjisi və "yaşıl hidrogen" sahəsində böyük potensialı imkan verir. Avropa ölkəmizə bu sahədə də böyük ümid bəsləyir. "Qoca qitə"də Azərbaycana gələcəkdə Avropa İttifaqı üçün bərpaolunan enerji növlərini ixrac edən mühüm və etibarlı tərəfdaş kimi baxırlar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunun mövqeləri son günlər intensiv atəşə tutulur

Son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri intensiv atəşə tutulur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, sentyabrın 5-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı Şorca və Əzizli yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Zivel və Yellicə yaşayış məntəqələri istiqamətində yerləşən ordumuzun mövqelərini müxtəlif növ atıcı silahlardan atəşə tutub.

Bütün istiqamətlərdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Bildiririk ki, son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində baş verən gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

***AZƏRTAC***

# Hərbi xunta sıradan çıxarılır

## Ermənistanda Paşinyanla "Sarkisyan-Koçaryan" koalisiyası arasında siyasi mübarizə daha da sərtləşir

Ermənistanda baş verən son proseslər ölkədə yeni qarşıdurma mərhələsinin başlandığını göstərir. Belə görünür ki, Araik Arutyunyanın "baş müşaviri" Mikael Arzumanyanın həbsə atılması ilə Nikol Paşinyan "Sarkisyan-Koçaryan" koalisiyasını tam şəkildə çökdürməkdə israrlıdır. Hadisələrin inkişafı qarşıda mövcud hakimiyyətlə keçmiş hərbi xunta arasında sərt mübarizənin daha yüksək həddə çatacağını göstərir.

"Qraparak" nəşri yazır ki, 44 günlük müharibənin məğlubiyyətinin günahkarlarının axtarışı öz nəticəsini verdi. Məqalədə yazılır ki, müstəntiq niyə generalın həbsinin səbəbini belə təfərrüatlı şəkildə təqdim edib? Onun məqsədi nədir? Hətta o qədər təfərrüatlıdır ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyanın komandanlığı ilə Şuşadakı dəstənin üzvü, jurnalist Boris Murazi (Boris Murazi Tamoyan) onların azərbaycanlıların hazırladığı tələyə düşdüyünü anlayır. MTX-nin keçmiş direktoru ilə baş nazir postunu tutan şəxs arasındakı münasibəti nəzərə alsaq, bunun şüurlu şəkildə edildiyini ehtimal etmək çətin deyil. Belə olan halda istintaqın rəhbəri, yeri gəlmişkən, şəxsən Paşinyana sadiq olan Kyaramyan Argiştinin məqsədi nə idi?

İstintaq əsl günahkarı məsuliyyətə cəlb etmək əvəzinə məğlubiyyəti hərbi rəhbərliyin üzərinə atmaq prosesini davam etdirir. Seçkiqabağı dövrdə bu məqsədəuyğun olardı, amma yerli seçkilər istisna olmaqla, gözlənilən deyildir.

Məqalədə bildirilir ki, müharibədən 2 il sonra 44 günlük savaşın əsas aktorları olan iki "komandir" ittiham olunur. Növbəti şəxs Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi olacaq, onun müavinlərindən biri daha əvvəl həbs edilib. Ola bilsin, yaxın vaxtlarda hətta aşağı rütbəli hərbçilərə də ittiham irəli sürüləcək. Bu zəncirdə təbii ki, baş komandan yoxdur, nə qədər ki, baş nazir kürsüdədir, o, günahsızdır, başqaları günahkardır. Aydındır ki, problem məğlubiyyətin günahkarlarını tapmaqda deyil. Adam 2 nəfəri öldürür, asayiş keşikçiləri bir həftədir axtarırlar, amma tapılmır, sadə cinayət işində günahkarı günahsızdan ayıra bilmirlər, müharibə şəraitində, xaosda hərc-mərclik və nəzarətsizlik, yaşın quru ilə yanacağı aydın deyilmi? O panikada əsl günahkarı günahsızdan, xəyanəti səhlənkarlıqdan, yanlış istiqamətləndirmədən, bilərəkdən yanlış təlimatdan ayırmaq mümkün olmayacaq.

Bu arada Ermənistanda keçmiş deputat Mher Sedrakyan da həbs edilib. Prokurorluq bildirib ki, məhkəmə prokurorluğun təqdim etdiyi vəsatət əsasında Sedrakyanın əmlakına qarşı iddianın ilkin təminatı vasitəsi kimi həbs tətbiq edib. Belə bir vəziyyətdə ölkənin ciddi ictimai-siyasi böhran yaşadığını anlamamaq mümkün deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Payız özünü daha erkən göstərir

## İnsan orqanizmində soyuğa qarşı həssaslıq yarandığından infeksiyalara sürətli yoluxma riski artır

Fasiləsiz keçən qızmar istilərin ardından son iki gündə növbəti bir yay fəslinin daha geridə qaldığı hiss edilir. Belə ki, sentyabrın 5-dən kəskinləşən hava şəraiti nəticəsində payız fəslinə xas əlamətlər özünü daha erkən göstərməyə başlayıb. Həmin gün paytaxtda günorta saatlarından etibarən şimal küləyinin güclənməsi ilə bu proses başlanıb.



Xatırladaq ki, sentyabrın 4-ü ölkə ərazisində hava şəraiti isti və yağmursuz keçib. Hətta havanın temperaturu iqlim normasını 7 dərəcə ötüb. Belə ki, havanın maksimal temperaturu Bakıda və Abşeron yarımadasında 36-40 dərəcə, dağlıq rayonlarda 36 dərəcəyə, aran rayonlarında isə 40 dərəcəyə yaxın isti olub.

### Qeyri-sabit hava şəraiti sabaha qədər davam edəcək

Hava şəraitinin kəskin dəyişməsi ilə bağlı Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, soyuq hava kütləsinin gəlməsi ilə temperatur qəfil aşağı düşməyə başlayıb. Yaxın günlər ərzində temperatur tədricən 8-10 dərəcə aşağı enəcək.

Sentyabr ayının 8-nə qədər ölkə ərazisində hava şəraiti küləkli və yağıntılı olacaq. Həmçinin Bakıda və Abşeron yarımadasında fasilələrlə yağış yağacağı, arabir güclənən şimal-qərb küləyi əsəcəyi gözlənilir. Bölgələrdə isə yağıntılı hava şəraiti davam edəcək, dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, yağıntıların leysan xarakterli intensiv olacağı və dolu düşəcəyi ehtimal olunur. Gözlənilən yağıntılarla əlaqədar çaylarda suluğun artacağı da istisna edilmir.

G.Məmmədova onu da vurğulayır ki, sentyabrın 8-i gündüz saatlarından etibarən hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Hələ ki, qeyri-sabit hava şəraitinin bu tarixə qədər davam edəcəyi proqnozlaşdırılır.

### "Fəsil dəyişkənliyi zamanı immun sistemini gücləndirmək lazımdır"

Qeyri-sabit hava şəraiti insan orqanizminə güclü təsir edən amillərdəndir. Bununla bağlı qəzetimizə açıqlama verən Səhiyyə Nazirliyinin ekspert-mütəxəssisi, terapevt Zakir Quliyev qeyd edir ki, belə hallar bir çox şəxslərə mənfi təsir göstərir: "Belə ki, kəskin fəsil dəyişkənliyi ürək-damar sistemi xəstəliklərindən əziyyət çəkənlərdə, şəkərli diabet olanlarda, endokrin problemli şəxslərdə, xüsusilə də qalxanabənzər vəzinin hipotriozu zamanı, arterial hipertenziya xəstələrində ciddi dəyişikliklərə səbəb olur. Belə şəxslərin orqanizminin kəskin fəsil dəyişikliyinə adaptasiya prosesi çətin olduğundan onlar bir çox problemlərlə üzləşirlər. Bronxial astma kimi ağciyər xəstələrində bronxların həssaslaşması prosesi baş verir ki, bu da təhlükə yaradır. Adətən həmin şəxslərdə kəskin şəkildə təngnəfəslik və boğulmaların artması kimi hallar müşahidə edilir".

Terapevt vurğulayır ki, qeyd olunan xəstələr belə hava şəraitində mütləq şəkildə dərmanlarını mütəmadi olaraq qəbul etməli və daim həkim nəzarətində olmalıdırlar. İsti havadan soyuq havaya keçən zaman bədəndəki termirequlyasiya sisteminin (istilik və soyuqluq balansı) pozulması kimi hallara da rast gəlinir. Belə halda orqanizmdə soyuğa qarşı həssaslıq yarandığından infeksiyalara sürətli yoluxma riski artır. Odur ki, hər kəs immun sistemini güclü saxlamaqla fəsil dəyişkənliyinin yarada biləcəyi problemlərdən yan keçə bilər".

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Liz Trass Böyük Britaniyanın Baş naziri vəzifəsinə təyin olundu

Dünən Kraliça II Elizabet Liz Trassı Böyük Britaniyanın Baş naziri vəzifəsinə təyin edib. O, ənənəyə uyğun olaraq yeni hökumət başçısına Nazirlər Kabinetini formalaşdırmağı tapşırıb. Xüsusi mərasim Şotlandiyada, Aberdin yaxınlığındakı Balmoral qəsrində keçirilib.





Beləliklə, Liz Trass II Elizabetin təyin etdiyi 15-ci Baş nazir olub.

Bundan yarım saat əvvəl isə Kraliça keçmiş hökumət başçısı Boris Consonun istefasını qəbul edib.

Xatırladaq ki, bir neçə gün öncə Mühafizəkarlar Partiyasının yeni lideri və müvafiq olaraq Britaniya hökumətinin rəhbəri vəzifəsinə ölkənin sabiq xarici işlər naziri Liz Trass seçilib. Trassın namizədliyini mühafizəkarların əksəriyyəti dəstəkləyib. Səsvermə iyulun sonundan poçt vasitəsilə aparılıb.

Onun əsas rəqibi iyulun 5-dək Maliyyə Nazirliyinin kansleri postunu tutan Rişi Sunak olub. İlkin olaraq 12 mühafizəkar partiya sədri vəzifəsinə namizədliyini irəli sürüb.

O, evlidir və iki övladı var. Liz Trass ötən il sentyabrın 15-dən Böyük Britaniyanın xarici işlər naziri vəzifəsində çalışıb. O, Böyük Britaniya tarixində Marqaret Tetçer və Tereza Meydən sonra üçüncü qadın Baş nazirdir.

Qeyd edək ki, Liz Trass Mühafizəkarların lideri seçildikdən sonra mətbuat konfransında "mən vergiləri azaltmaq və Britaniya iqtisadiyyatını inkişaf etdirmək üçün cəsarətli bir plan təqdim edəcəyəm" deyə vəd verib. O, Mühafizəkarlar Partiyasına rəhbərlik etməkdən qürur duyduğunu bildirib və yarışdakı əsas rəqibi, keçmiş maliyyə naziri Rişi Sunaka təşəkkür edib. Britaniya Mühafizəkarlarının lideri işinə görə həmçinin sələfi Boris Consona təşəkkür edib və onu dostu adlandırıb.

Trass bildirib ki, Mühafizəkarlar Partiyası onun rəhbərliyi altında növbəti iki il ərzində seçicilərə verdiyi vədləri yerinə yetirmək niyyətindədir.

Dünən axşam Liz Trass hökumət başçısı iqamətgahı qarşısında ilk dəfə çıxış edib. O bildirib ki, Britaniya ictimaiyyəti dəfələrlə cəsarət və qətiyyət nümayiş etdirib, hazırda isə Ukrayna müharibəsinin, habelə COVID virusunun yaratdığı qlobal problemlərlə üzləşir.

Liz Trass bildirib ki, vergilərin azaldılması və islahatlar yolu ilə iqtisadiyyatı inkişaf etdirmək üçün cəsarətli planı var. O, Böyük Britaniyanın işləməsi, qurulması və böyüməsi üçün öz missiyasında islahatlar aparacağını da əlavə edib.

Artan enerji fakturalarına gəldikdə, Trass təkcə hesablarla deyil, həm də uzunmüddətli enerji təminatı məsələləri ilə də məşğul olacağını söyləyib.

Liz Trassın Nazirlər Kabinetində təyinatlar həyata keçirəcəyi bildirilir. Yeni Baş nazir öz kabinetində əsas nazirliklərin başçıları postuna namizədləri faktiki olaraq müəyyənləşdirib. Hazırkı sahibkarlıq, energetika və sənaye strategiyası naziri Kvazi Kvartenqin maliyyə naziri vəzifəsinə təyin ediləcəyi, Baş prokuror Suella Breyvermanın daxili işlər naziri olacağı, xarici işlər naziri vəzifəsini isə təhsil naziri Ceyms Kleverlinin tutacağı gözlənilir.

Yeni kabinetin tərkibinə indiki daxili işlər naziri Priti Patel və mədəniyyət naziri Nadin Dorris daxil olmayacaqlar - onlar artıq istefa vermək istədiklərini açıqlayıblar.

Mühafizəkarlar Partiyasının əksər üzvlərinin səs verdiyi Liz Trassın qələbəsi Boris Consonun çoxsaylı sosial və siyasi təlatümlərlə müşayiət olunan üçillik hakimiyyətinə son qoydu.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# "TurAz Qartalı - 2022" təlimində bir sıra tapşırıqlar icra olunub

"TurAz Qartalı - 2022" birgə taktiki-uçuş təlimində döyüş təyyarələri ilə ətrafı tanıma uçuşları icra edilib.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sonra təlimin planına uyğun olaraq əməliyyat uçuşları yerinə yetirilib.

Uçuşlardan öncə əməliyyatın planı, hava şəraiti və digər texniki məsələlərlə bağlı brifinq təqdim edilib.

Plana əsasən radioelektron mübarizə (REM) vasitələrindən istifadə edərək aldadıcı manevrlərlə şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınmaq və təyin olunan yerüstü hədəflərin məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Yüksək peşəkarlıq nümayiş etdirən Azərbaycan və Türkiyənin hərbi pilotları qarşıya qoyulan tapşırıqları uğurla icra ediblər.





# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *açıq tender elan edir*

Bakı şəhəri və onun qəsəbələrinin məktəbəqədər təhsil müəssisələrində cari təmir işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərsiniz:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1500,00 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, probasiya şöbəsi və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *AZS İSO 9001:2020; AZS İSO 14001:2020, AZS İSO 45001:2020 sertifikatları.*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **26 sentyabr 2022-ci il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **05 oktyabr 2022-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **06 oktyabr 2022-ci il saat 15:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## "ERA" Açıq Tipli Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə

"ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti 10 oktyabr 2022-ci il saat 11:00-da səhmdarlarını növbədənkənar yığıncağına dəvət edir.

İclasın gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. "ERA" ATSC -nin təsisçisinin qərarı ilə qanuni təmsilçilik funksiyasına malik direktor vəzifəsinin seçilməsi.
2. "ERA" ATSC -nin nizamnaməsinin yeni redaksiyada (2-ci redaksiyada) təsdiq edilməsi.
3. "ERA" Açıq Tipli Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") adından tipli sözünün çıxarılması.
4. Nizamnaməyə dəyişiklik edilməsi ilə əlaqədar və dəyişikliklərin dövlət qeydiyyatına alınması ilə bağlı səlahiyyətli şəxsin müəyyən edilməsi və kommersiya qurumunun dövlət reyestrindən çıxarışının alınmasının təşkili.
5. Digər məsələlər.

İclas səhmdar cəmiyyətin ofisində keçiriləcək.

**Ünvan: Nərimanov rayonu, İslam Abışov küçəsi, 20/94 Tel: 012 563-13-40**

***Rəhbərlik***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Bibiheybət Gəmi Təmiri Zavodu üçün müxtəlif sinklənmiş polad boruların alınması məqsədilə

## *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 sentyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177, 1047.**

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Təhsil Nazirliyinin birbaşa tabeliyində olan təhsil müəssisələrində dövlət təminatında olan təhsilalanların 2022-ci ilin sentyabr-dekabr ayları ərzində yeməklə təchizatının satın alınması üzrə keçirilmiş açıq tender müsabiqəsində TAİS İKF MMC qalib elan olunmuşdur.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin İşlər və Komplektləşdirmə İdarəsinin rəisi Cavanşir Quliyevə qardaşı

**HİDAYƏT CAVAD OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin Genetika kafedrasının müdiri Kamilə Əliyeva və əməkdaşları kafedranın dosenti

**MƏCİD MƏHƏMMƏD OĞLU MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov iqtisadiyyat nazirinin müşaviri Elnur Hacıyevə qayınatası

**VİLAYƏT MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6484**
**Sifariş 2512**
**Qiyməti 40 qəpik**